№ 15-16 (847) 31 avqust 2026-cı il ◦ Qəzet 1991-ci ildən nəşr olunur ◦ www.health.gov.az; ◦ www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 2



Turizmin inkişafına dair Dövlət Proqramı qəbul edildi 2



Hərbi həkimlər təltif edildilər 2

## Birinci vitse-prezident Mehriban Əliyeva Elmi Tədqiqat Pediatriya İnstitutunu ziyarət edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Səhiyyə Nazirliyi K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunu ziyarət ediblər. AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev Birinci vitse-prezident Mehriban Əliyevaya institutun fəaliyyəti barədə məlumat verib. Qeyd olunub ki, Elmi Tədqiqat Pediatriya İnstitutu bir əsrdən çoxdur uşaqların sağlamlığının qorunması kimi mühüm və nəcib işə xidmət edir.

3



## Əhalinin icbari tibbi sığortası sahəsində sənədlərə dəyişiklik edilib

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Kollegiyası «Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının bəzi qərarlarında dəyişiklik edilməsi haqqında Qərar qəbul edib.

Səh. 4

## Lisenziyasız kosmetoloji fəaliyyət göstərən şəxs barəsində qanuni tədbirlər görülüb



«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) öz səlahiyyətləri çərçivəsində özəl tibb fəaliyyətinə dair planlı və plandankənar yoxlamalar aparır.

Səh. 7

## Tibbi mübahisələrdə həkimin məsuliyyəti necə qiymətləndirilir?



Səhiyyə sahəsində yaranan mübahisələrdə cəmiyyətdə adətən xəstənin səhhətində arzuolunmaz nəticə baş verdikdə bunun avtomatik olaraq həkim səhvi olduğu düşünülür. Halbuki tibbi müdaxilənin arzuolunmaz nəticə ilə yekunlaşması hər zaman həkimin hüquqi məsuliyyəti demək deyil. Bu barədə Ali Məhkəmədən AZƏRTAC-a verilən məlumatda bildirilib ki, həkimin məsuliyyəti, ilk növbədə, tibbi müdaxilənin mövcud tibbi göstərişlərə uyğun aparılıb-aparılmaması, diaqnozun düzgün müəyyən edilməsi, müalicə taktikasının tibbi standartlara cavab verməsi və müdaxilənin peşəkar qaydada icra olunması əsasında qiymətləndirilməlidir.

4

## ATU-da Ətraf mühit və sağlamlıq ixtisaslaşması üzrə sağlam gələcəyin mütəxəssisləri hazırlanır




Müasir dövrdə sənayeləşmə, urbanizasiya və iqlim dəyişikliyi fonunda ətraf mühit amillərinin insan sağlamlığına təsiri ictimai səhiyyənin əsas prioritetlərindəndir. Baş verən kəskin iqlim dəyişmələri, gözlənilməz təbii fəlakətlər, anomal istilər, zəlzələ, sunami, sel və daşqınlar, torpaq sürüşmələri və s. planetin ekoloji balansının kəskin pozulmasından xəbər verir.

6

# Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*



2027-ci ilin yanvar ayında Azərbaycanın görkəmli dövlət və elm xadimi, səhiyyə təşkilatçısı, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 130 illiyi tamam olur.

Yüksək amallara və humanist ideallara sadiq əsl vətənpərvər ziyalı kimi Əziz Əliyev şərəfli bir ömür yolu keçmiş və gələcək nəsillər üçün xalqa xidmətin parlaq nümunəsini yaratmış nadir şəxsiyyətlərdəndir. O, ən müxtəlif məsul vəzifələrdə çalışarkən milli təəssübkeşlik hissi ilə daim dövlət quruculuğu və idarəçiliyin təkmilləşdirilməsi istiqamətində olduqca səmərəli fəaliyyət göstərmişdir. Azərbaycanda səhiyyə sisteminin yeni əsaslar üzərində qurulmasında, tibb təhsilinin dövrün standartlarına uyğun formalaşdırılmasında və bu sahədə yetkin milli kadrların hazırlanmasında Əziz Əliyevin müstəsna rolu vardır. Əziz Əliyev İkinci Dünya müharibəsi illərində hərbi-siyasi əhəmiyyəti ilə seçilən bir sıra mühüm işlərə böyük uğurla rəhbərlik etmişdir. O, Azərbaycan tarixinin həlledici məqamlarında xalqın taleyüklü məsələlərinə münasibətdə atdığı qətiyyətli addımlarla dövlət idarəçiliyi məktəbini zənginləşdirmişdir. Azərbaycan və Dağıstan arasında münasibətlərin daha da möhkəmləndirilməsi naminə göstərdiyi fədakarlıqlar və verdiyi töhfələr Əziz Əliyevin adını xalqlarımızın dostluq və qardaşlığının həqiqi rəmzinə çevirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan xalqı qarşısında xüsusi xidmətlərini nəzərə alaraq dövlət və elm xadimi, professor Əziz Əliyevin 130 illiyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 avqust 2026-cı il*

# «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Ukrayna Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş»in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il noyabrın 1-də Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Ukrayna Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş» təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Ukrayna Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 10 avqust 2026-cı il*

# Hərbi həkimlər təltif edildilər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında və dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı şəhid olmuş Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçisinin 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif edilməsi haqqında" Sərəncam imzalayıb.**

Sənədə əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında və dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları icra edərkən vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bir sıra hərbi qulluqçusu və mülki işçisi ölümündən sonra 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif ediliblər. Onların arasında hərbi həkim də var. Belə ki, tibb xidməti kapitanı şəhid Ceyhun Xanlar oğlu Əhmədxanov bu ordenə layiq görülüb.

Dövlət başçısı həmçinin «Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında» Sərəncam da verib. Bu sənədə əsasən, Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə təltif edilmiş Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları arasında da tibb işçiləri var. Belə ki, tibb xidməti polkovniki Şükür Məhəmməd oğlu Eyvazov, tibb xidməti polkovniki İsmayıl Qəhrəman oğlu Heydərov, tibb xidməti polkovnik-leytenantı İlqar Eldar oğlu Əmrahov və tibb xidməti mayoru Sima Rahil qızı Misgərli «Hərbi xidmətlərə görə» medalı ilə təltif ediliblər.






# Turizmin inkişafına dair Dövlət Proqramı qəbul edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.**

Sənəddə Dövlət Proqramının qəbul olunması ilə yanaşı, Nazirlər Kabinetinə «Turizm haqqında» Azərbaycan Respublikası Qanununun, eləcə də turizm fəaliyyəti ilə bağlı layihələrə investisiya təşviqi sənədinin verilməsi mexanizminin təkmilləşdirilməsi ilə əlaqədar təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi və icrasına nəzarət də Nazirlər Kabinetinə həvalə olunub.

Sərəncamda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, Dövlət Turizm Agentliyinə, Maliyyə Nazirliyinə və İqtisadiyyat Nazirliyinə də müvafiq tapşırıqlar verilib.

Dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş Proqramın «Qlobal trendlər» bölməsində qeyd olunur ki, hazırda dünyada turizm sahəsinin böhranlara davamlılığını təmin etmək məqsədilə müxtəlif üsullardan, o cümlədən çoxdilli rəqəmsal alətlərdən, çevik marketinq və kommunikasiya kampaniyalarından, turizm fəaliyyətləri üzrə birbaşa maliyyə dəstəyi və təşviq proqramlarından, kütləvi turizmdən asılılığın azaldılması məqsədilə xüsusi qruplardan istifadə edirlər. Buraya sağlamlıq və müalicə turizmi də daxil olmaqla müxtəlif turizm növlərinin inkişaf etdirilməsi də aiddir.

Azərbaycanda ənənəvi turizm seçimləri üstünlük təşkil etsə də, yaxın perspektivdə yeni turist seqmentlərinin (yaşlı və subay insanlar, uşaqsız ailələr, sağlamlıq məqsədilə səyahət edənlər və s.) formalaşacağı və onların turizm bazarında əhəmiyyətinin artacağı proqnozlaşdırılır.

*(Davamı 2-ci səhifədə)*

# Turizmin inkişafına dair Dövlət Proqramı qəbul edildi

*(Əvvəli 2-ci səhifədə)*

Dövlət Proqramında turizm sahəsində dövlət siyasətinin əsas istiqamətləri sadalanarkən qeyd olunub ki, turizm potensialının beynəlxalq səviyyədə təbliği üçün 2018-ci ildə «Azərbaycan: Bir daha bax» marketinq kampaniyası əsasında milli turizm brendi yaradılmış, hədəf turizm bazarlarında dörd əsas istiqamət üzrə (mədəniyyət, sağlamlıq, işgüzar tədbirlər, təbiət və macəra) genişmiqyaslı təbliğat və kommunikasiya tədbirləri həyata keçirilmişdir.

Turizm potensialından səmərəli istifadə məqsədilə turizm resurslarının inventarlaşdırılması aparılmış, beynəlxalq mədəni turizm marşrutları inkişaf etdirilmiş, dağpiyada marşrutları yaradılmış, kəndlər üzrə turizm inkişaf konsepsiyaları hazırlanmışdır. Həmçinin sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması, eləcə də tibbi turizmin inkişafı məqsədilə ölkənin reytinqinin yüksəldilməsi istiqamətində işlər davam etdirilmişdir. Görülmüş işlərdən biri də Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən «2026-2029-cu illər üçün Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə yeni tibbi araşdırmalar aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair Tədbirlər Proqramı»nın təsdiq edilməsidir.

«Dövlət Proqramının prioritet istiqamətləri» bölməsində sağlamlıq turizminin inkişaf etdirilməsi ayrıca bənd kimi şərh edilir. Bildirilir ki, sağlamlıq turizminin (tibbi və rifah) inkişafı ilə bağlı mövcud vəziyyətin araşdırılması, bu turizm növünün inkişafı ilə bağlı strategiyanın və fəaliyyət planının hazırlanması və icrası nəzərdə tutulur. Bu sırada görüləcək tədbirlər sağlamlıq turizminin inkişafı strategiyasının və fəaliyyət planının hazırlanması və icrası, tibb müəssisələrinin akkreditasiyası üzrə normativ hüquqi aktların tibbi turizm istiqamətində təkmilləşdirilməsi, tibbi turizm xidməti göstərən müəssisələrin beynəlxalq akkreditasiya və sertifikatlaşma hazırlığının dəstəklənməsi, eləcə də sağlamlıq turizminin davamlı inkişafını dəstəkləmək məqsədilə tədbirlərin təşkil edilməsidir.

«Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı»nda Səhiyyə Nazirliyinə aid bəndlər də var. Belə ki, Tədbirlər Planının «Tənzimləmə keyfiyyəti» bölməsinin «Turizm sahəsinin dayanıqlı keyfiyyət təminatı sisteminin qurulması» hissəsində «Mehmanxana (hotel) və digər yerləşmə vasitələri üçün normativ hüquqi aktlarla sanitariya və gigiyena ilə bağlı tələblərin müəyyən edilməsi» bəndinin əsas icraçı orqanı Səhiyyə Nazirliyidir. Bu bəndin digər icraçıları kimi Dövlət Turizm Agentliyi və İqtisadiyyat Nazirliyi qeyd olunub. Bəndin nəticə indikatoru olaraq mehmanxana (hotel) və digər yerləşmə vasitələrinin fəaliyyəti üçün sanitariya və gigiyena ilə bağlı tələblərin müəyyən edilməsi və tətbiqi ilə əlaqədar tələb olunan normativ hüquqi akt layihələrinin hazırlanması, razılaşdırılması və təsdiqi üçün aidiyyəti üzrə təqdim olunması, son nəticədə, təsdiq edilməsi göstərilib.

Tədbirlər Planının «Regionlarda turizmin inkişafı və icmalar» bölməsinin «Xüsusi rejimli ərazilərdə turizmin inkişaf etdirilməsi» hissəsinin «Naftalan şəhərində turizmin inkişaf etdirilməsi» bəndində Səhiyyə Nazirliyi digər icraçılardan biridir.

Planın «Turizm məhsulları və təcrübələri» bölməsinin ayrıca bir hissəsi «Sağlamlıq turizminin inkişaf etdirilməsi» adlanır. Bu hissənin «Sağlamlıq turizminin inkişafı strategiyasının və fəaliyyət planının hazırlanması və icrası» və «Tibb müəssisələrinin akkreditasiyası üzrə normativ hüquqi aktların tibbi turizm istiqamətində təkmilləşdirilməsi» bəndlərinin əsas icraçı orqanı Səhiyyə Nazirliyi, digər icraçıları Dövlət Turizm Agentliyi və TƏBİB-dir.

Həmin hissənin «Tibbi turizm xidməti göstərən müəssisələrin beynəlxalq akkreditasiya və sertifikatlaşma hazırlığının dəstəklənməsi» bəndi əsas icraçı orqan olaraq Səhiyyə Nazirliyinə və TƏBİB-ə, digər icraçı kimi Dövlət Turizm Agentliyinə həvalə olunub.

«Sağlamlıq turizminin davamlı inkişafını dəstəkləmək məqsədilə tədbirlərin təşkil edilməsi» bəndinin isə əsas icraçısı Dövlət Turizm Agentliyidir. Səhiyyə Nazirliyi və TƏBİB bu bəndin digər icraçıları kimi müəyyən edilib. Bu bəndin hədəfi olaraq sağlamlıq turizmi mövzusunda konfransın konsepsiyasının və təşkilati planının hazırlanması, illik əsasda Sağlamlıq Turizmi Konfranslarının keçirilməsi, 2027-2030-cu illərdə 4 belə konfransın təşkili planlaşdırılır.

# Birinci vitse-prezident Mehriban Əliyeva Elmi Tədqiqat Pediatriya İnstitutunu ziyarət edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Səhiyyə Nazirliyi K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunu ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev Birinci vitse-prezident Mehriban Əliyevaya institutun fəaliyyəti barədə məlumat verib.

Qeyd olunub ki, Elmi Tədqiqat Pediatriya İnstitutu bir əsrdən çoxdur uşaqların sağlamlığının qorunması kimi mühüm və nəcib işə xidmət edir.

Hazırda elmi-metodik mərkəz kimi fəaliyyət göstərən bu tibb müəssisəsi 1925-ci ildə 200 çarpayılıq uşaq xəstəxanasının bazasında təşkil olunub, 1927-ci ildə yenidən qurularaq Ana və Uşaqları Mühafizə İnstitutuna çevrilib. Burada uşaqların müalicə-profilaktikası ilə yanaşı, pediatriya sahəsində peşəkar tibbi kadrların hazırlanması, elmi tədqiqatların aparılması, mövcud tibb təhsilinin təkmilləşdirilməsi həyata keçirilir. İnstitutda 255 çarpayılıq klinik şöbələr, elmi və bir çox paraklinik bölmələr var. Yenidoğulanların 60 çarpayılıq reanimasiyası və intensiv terapiyası şöbəsi ölkə üzrə mərkəz funksiyasını yerinə yetirir.





Ziyarət zamanı Birinci vitse-prezident və qızları institutda yaradılmış şəraitlə tanış oldular. Həmçinin gələcəkdə fəaliyyətin təkmilləşdirilməsi üçün instituta avadanlıqlar - süni ventilyasiya aparatları hədiyyə edilib.

# Ombudsman idmançılar üçün yeni tibbi nəzarət mexanizmi təklif edib




**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) müstəqil monitorinq fəaliyyəti çərçivəsində idman yarışlarında, məşq prosesində tibbi müayinələrin məcburi xarakter daşımasının hüquqi əsasları və milli qanunvericiliyin təkmilləşdirilməsi haqqında analitik arayış hazırlanıb.**

Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, araşdırmada xüsusilə yüksəkriskli, o cümlədən döyüş idman növlərində idmançıların, əsasən yetkinlik yaşına çatmayan şəxslərin sağlamlığının və təhlükəsizliyinin daha etibarlı təmini məqsədilə mövcud qanunvericiliyin, tibbi nəzarət mexanizmlərinin təkmilləşdirilməsinin vacibliyi qeyd olunub.

Beynəlxalq təcrübənin təhlili əsasında idmançıların yarışlara, sparrinq və intensiv məşq proseslərinə buraxılmasından əvvəl kompleks, çoxpilləli tibbi müayinələrin tətbiqinin əhəmiyyəti vurğulanıb.

Analitik arayışda xüsusilə yüksəkriskli idman növləri üzrə idmançıların MRT-dən, genişləndirilmiş kardioloji müayinədən və nevroloji qiymətləndirmədən məcburi keçirilməsi ilə bağlı milli qanunvericiliyin təkmilləşdirilməsi təklif olunub.

Bununla yanaşı, idmançıların sağlamlıq vəziyyətinə nəzarətin gücləndirilməsi, aralıq tibbi monitorinq mexanizminin və vahid elektron tibbi nəzarət reyestrinin yaradılmasının onların sağlamlıq hüququnun daha səmərəli təmininə xidmət edəcəyi bildirilib.

Aparılmış araşdırmanın nəticələri ilə əlaqədar ombudsman tərəfindən aidiyyəti quruma məktub ünvanlanıb.

# QHT-lər üçün qrant müsabiqəsinə dair infosessiya keçirilib



**Səhiyyə Nazirliyi və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin QHT-lər üçün elan etdikləri birgə qrant müsabiqəsinə dair infosessiya keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirildiyinə görə, tədbirdə səhiyyə nazirinin müavini Nadir Zeynalov, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin İdarə Heyətinin sədri Aygün Əliyeva və digər məsul şəxslər iştirak ediblər.

Toplantıda birgə qrant müsabiqəsinə dair suallar cavablandırılıb, ətraflı izahlar verilib.İnfosessiyada 30-dan çox QHT nümayəndəsi iştirak edib.

# Əhalinin icbari tibbi sığortası sahəsində sənədlərə dəyişiklik edilib

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Kollegiyası «Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının bəzi qərarlarında dəyişiklik edilməsi haqqında Qərar qəbul edib.**




Sənəddə deyilir ki, Nazirliyin Kollegiyası «Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 aprel tarixli 194s nömrəli Sərəncamının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə»nin 5.10-cu bəndini rəhbər tutaraq, ƏƏSMN-nin Kollegiyasının 2006-cı il 26 dekabr tarixli 16 nömrəli Qərarı ilə təsdiq edilmiş «Sosial müdafiə, tibbi-sosial ekspertiza və reabilitasiya sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası»nda və 2017-ci il 26 dekabr tarixli 19-1 nömrəli Qərarı ilə təsdiq edilmiş «Ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçulara hərbi xidmətlə əlaqədar əlillik səbəblərinin müəyyən olunması barədə Təlimat"da dəyişikliyi təsdiq edib.

Dəyişikliyə əsasən, Vahid Tarif-İxtisas Sorğu Kitabçasının «Tarif-ixtisas xüsusiyyətləri"nin «1.2. Mütəxəssislər» bölməsinin «Tibbi-sosial ekspertiza üzrə həkim-ekspert» və «Sosial sahə üzrə tibb bacısı (qardaşı) (böyük tibb bacısı (qardaşı) da daxil olmaqla)» hissələrinin onuncu abzaslarında «Tibbi-Sosial Ekspertiza və Reabilitasiya» sözləri «Tibbi Sığorta və Ekspertiza» sözləri ilə əvəz edilib.

Adı çəkilən Təlimatda isə 2.1-ci bənddə «yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti (bundan sonra -Xidmət)» sözləri «tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi (bundan sonra - Agentlik)» sözləri ilə əvəz olunub, həmçinin 3.5-ci bənddə "Xidmət" sözü «Agentlik» sözü ilə əvəz edilib.

# Tibbi mübahisələrdə həkimin məsuliyyəti necə qiymətləndirilir?

**Səhiyyə sahəsində yaranan mübahisələrdə cəmiyyətdə adətən xəstənin səhhətində arzuolunmaz nəticə baş verdikdə bunun avtomatik olaraq həkim səhvi olduğu düşünülür. Halbuki tibbi müdaxilənin arzuolunmaz nəticə ilə yekunlaşması hər zaman həkimin hüquqi məsuliyyəti demək deyil.**

Bu barədə Ali Məhkəmədən AZƏRTAC-a verilən məlumatda bildirilib ki, həkimin məsuliyyəti, ilk növbədə, tibbi müdaxilənin mövcud tibbi göstərişlərə uyğun aparılıb-aparılmaması, diaqnozun düzgün müəyyən edilməsi, müalicə taktikasının tibbi standartlara cavab verməsi və müdaxilənin peşəkar qaydada icra olunması əsasında qiymətləndirilməlidir. Təkcə xəstədə sonradan müəyyən fəsadların meydana çıxması həkimin təqsirini təsdiq etmir. Yəni tibbi mübahisələrdə məhkəmə yalnız nəticəyə deyil, həmin nəticəyə aparan prosesin düzgün icra olunub-olunmadığına qiymət verir. Əgər həkim diaqnozu mövcud müayinələrə əsasən düzgün müəyyən etmiş, müalicə üsulunu düzgün seçmiş, əməliyyatı tibbi standartlara uyğun icra etmişdirsə, arzuolunmaz nəticənin baş verməsi özü-özlüyündə həkimin hüquqi məsuliyyət daşıdığını göstərmir.



Ali Məhkəmənin Plenumunun "Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında" qərarında qeyd olunub ki, bütün prosedurlar tibb elminin ümumi qəbul olunan sübutlu təbabət prinsiplərinə uyğun, xüsusi diqqət və lazımi tədbirlər çərçivəsində həyata keçirildiyi halda, vurulmuş zərərə görə məsuliyyət istisna edilir. Bu mənada, həkim tibbi standartlar çərçivəsində hərəkət edərək, pasiyentə lazımi diqqət və qayğı göstəribsə, buna baxmayaraq, ortaya arzuolunmayan nəticə çıxıbsa, qəbul edilir ki, həkim belə halda qanuni olaraq məsuliyyət daşımır.

Nəzərə alınmalıdır ki, tibbi mübahisələrdə ən mühüm sübutlar məhz tibbi sənədlərdir. Tibb müəssisəsi fəaliyyətinin qanuna, göstərdiyi tibbi xidmətlərin klinik protokollara uyğun olmasını sübut etməlidir. Buna görə xəstənin şikayətləri, aparılan müayinələr, diaqnoz, əməliyyatın səbəbləri, əməliyyat protokolları, pasiyentin məlumatlandırılması və razılığının alınması tam və düzgün sənədləşdirilməlidir. Sənədləşmədə boşluqlar olduqda, hətta tibbi müdaxilə düzgün aparılmış olsa belə, bu vəziyyət sonradan sübutetmə baxımından ciddi çətinliklər yarada bilər.

Xüsusilə xəstəyə əməliyyat barədə lazımi məlumatın verilməsi və razılığının alınması proseduru formal sənəd imzalatmaqdan ibarət olmamalıdır. Pasiyentə planlaşdırılan əməliyyatın məqsədi, mümkün risklər, ağırlaşmalar və gözlənilən nəticələr sadə və anlaşılan şəkildə izah edilməli, bu proses lazımi qaydada sənədləşdirilməlidir. Bu yanaşma həm pasiyentin hüquqlarının qorunmasına, həm də sonradan yarana biləcək mübahisələrin qarşısının alınmasına xidmət edir.

Beləliklə, tibbi xidmət sahəsində hüquqi risklərin azaldılması üçün həm həkimlər, həm də xəstəxanalar fəaliyyətlərini yalnız keyfiyyətli tibbi xidmətlə məhdudlaşdırmamalı, hüquqi baxımdan da düzgün təşkil etməlidirlər.

# Ödənişsiz skrininq aksiyasında 400-ə yaxın qadın müayinə olunub

**Səhiyyə Nazirliyi, Milli Onkologiya Mərkəzi, Azərbaycan Onkoloqlar Cəmiyyəti və Bakı Patologiya Mərkəzinin birgə təşkilatçılığı ilə paytaxtın Yasamal rayonunun kommunal təsərrüfatı sahəsində çalışan qadınlar üçün ödənişsiz skrininq aksiyası keçirilib.**





Milli Onkologiya Mərkəzindən verilən məlumata görə, skrininqdə 400-ə yaxın qadın iştirak edib.

Mərkəzin məlumatında qeyd olunur ki, erkən diaqnostika bir çox onkoloji xəstəliklərin qarşısının alınmasında və uğurlu müalicəsində həlledici rol oynayır. Qadın sağlamlığının qorunmasına yönəlmiş bu təşəbbüsün məqsədi profilaktik müayinələrin əhəmiyyətini artırmaq və sağlam gələcəyə töhfə verməkdir.

# Qaxda və Qəbələdə 1222 nəfər tibbi müayinədən keçirilib

**«PAŞA Holding» və Səhiyyə Nazirliyinin birgə təşəbbüsü, «ALL Medical» şirkətinin təşkilatçılığı ilə həyata keçirilən «Erkən müayinə can qurtarır!» aksiyası Qax rayonunun Kötüklü kəndində və Qəbələnin Topbağ kənd məktəbində uğurla icra olunub.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, aksiya çərçivəsində Qaxda 510, Qəbələdə 712 nəfər olmaqla, ümumilikdə 1222 nəfər tibbi müayinədən keçirilib.

Hər iki aksiyada aparılan müayinələr zamanı şəkərli diabet aşkarlanan 19, ümumilikdə isə 38 nəfər qanda qlükoza səviyyəsinin müntəzəm monitorinqi məqsədilə qlükometr (şəkərölçmə cihazı) ilə təmin edilib.

Bununla yanaşı, Qəbələdə həyata keçirilən aksiya çərçivəsində sosial dəstək məqsədilə 2 qazi ailəsinə də qlükometr təqdim olunub.





# Samuxda qarayara ilə bağlı epidemioloji vəziyyət stabildir

**Samux rayonu üzrə qeydə alınan qarayara hadisəsi ilə bağlı ilkin epidemioloji araşdırmalara əsasən, xəstəliyə şübhəli bilinən şəxslərin iribuynuzlu heyvanlarla təması müəyyən edilib. Xəstəliyə şübhəli olan ilk şəxsdən götürülmüş müayinə materialının laborator müayinəsi nəticəsində «qarayara xəstəliyi» diaqnozu təsdiq edilib.**

Bu barədə Səhiyyə Nazirliyi, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə Məlumatında bildirilib.

Qeyd olunub ki, hazırda infeksiya isə təmasda olmuş şəxslər müəyyənləşdirilib, tibbi müşahidəyə cəlb edilib və hər hansı dəri yarası olan şəxslərdən laborator müayinələrin aparılması üçün nümunələr toplanılıb.

Xəstə heyvanla təmasda olan 9 nəfər şəxs aşkarlanaraq Abbas Səhhət adına Gəncə Şəhər Birləşmiş Xəstəxanasının yoluxucu xəstəliklər şöbəsində izolyasiya edilib. Xəstəliklə təmasda olan şəxslər əsasən Samux rayon sakinləridir. Sözügedən şəxslərdən laborator müayinə üçün nümunələr toplanıb və Şəmkir Regional Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinə göndərilib.

Məlumatda qeyd olunur ki, qarayara xəstəliyinin törədicisi torpaq mənşəlidir və dünyanın hər yerində rast gəlinən haldır. Qarayara əsasən xəstə və ya tələf olmuş heyvanlarla, eləcə də onların yoluxmuş toxumaları və məhsulları ilə təmas nəticəsində insana keçən zoonoz xəstəlikdir. Xəstəliyin insandan-insana ötürülməsi olduqca nadir hallarda baş verir. Xəstə heyvanın termiki emal olunmuş ətinin və ondan hazırlanmış qidaların istehlakı qarayara xəstəliyinə yoluxmaya səbəb olmur.

Həmçinin bildirilir ki, hazırda hadisə ilə bağlı vəziyyət aidiyyəti qurumların nəzarətindədir və zəruri epidemioloji tədbirlər həyata keçirilir. Əhali arasında yayılma müşahidə olunmur və vətəndaşların narahatlığına əsas yoxdur. Vətəndaşlara xəstə və ya tələf olmuş heyvanlarla və şübhəli heyvan mənşəli məhsullarla təmasdan çəkinmək, xəstəliyə şübhə yaradan əlamətlər müşahidə etdikdə isə vaxtında tibb müəssisəsinə müraciət etmək tövsiyə olunur.

Birgə məlumatdan bir həftə sonra Səhiyyə Nazirliyi daha bir məlumat yayıb. Orada bildirilir ki, Samux rayonunda qarayara ilə bağlı epidemioloji vəziyyət stabildir. Yeni yoluxma halları qeydə alınmır və xəstəliyin əhali arasında yayılması müşahidə olunmur.

Qeyd edilir ki, Samux rayonunun Alıuşağı kəndində qarayara ilə bağlı hadisə qeydə alındıqdan dərhal sonra aidiyyəti qurumlar tərəfindən zəruri epidemioloji və profilaktik tədbirlər həyata keçirilib. Aparılan epidemioloji araşdırmalar zamanı xəstəliklə təmasda olmuş şəxslər müəyyənləşdirilib, tibbi müşahidəyə götürülüb və zəruri laborator müayinələr aparılıb. Eyni zamanda, hadisənin baş verdiyi təsərrüfatda epidemioloji və epizootoloji araşdırma həyata keçirilib, laborator müayinə məqsədilə müvafiq nümunələr götürülüb.




Aparılan müşahidə və laborator müayinələrin nəticələrinə əsasən 15 avqust 2026-cı il tarixindən etibarən yeni yoluxma halı qeydə alınmayıb.

Hazırda xəstəlik aşkarlanmış şəxslər tibb müəssisəsində müvafiq müalicə alır, xəstəliklə təmasda olmuş digər şəxslər üzrə isə zəruri tibbi müşahidə və tədbirlər həyata keçirilib. Təmasda olan şəxslər arasında yeni yoluxma halı müəyyən edilməyib.

Hadisə ilə əlaqədar aidiyyəti qurumlarla birgə xəstəliyin yayılmasının qarşısının alınması istiqamətində müvafiq profilaktik və əks-epidemik tədbirlər görülüb.

«Hazırda Samux rayonunda qarayara ilə bağlı epidemioloji vəziyyət stabildir və əhali arasında xəstəliyin yayılması müşahidə olunmur. Səhiyyə Nazirliyi tərəfindən epidemioloji vəziyyətə nəzarət davam etdirilir», - deyə məlumatda vurğulanır.

# ATU-da Ətraf mühit və sağlamlıq ixtisaslaşması üzrə sağlam gələcəyin mütəxəssisləri hazırlanır

**Müasir dövrdə sənayeləşmə, urbanizasiya və iqlim dəyişikliyi fonunda ətraf mühit amillərinin insan sağlamlığına təsiri ictimai səhiyyənin əsas prioritetlərindəndir. Baş verən kəskin iqlim dəyişmələri, gözlənilməz təbii fəlakətlər, anomal istilər, zəlzələ, sunami, sel və daşqınlar, torpaq sürüşmələri və s. planetin ekoloji balansının kəskin pozulmasından xəbər verir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, ağır xəstəliklər yükünün və vaxtsız ölümlərin böyük hissəsi ekoloji tarazlığın pozulması, hava, su və torpaq çirklənməsi ilə birbaşa bağlıdır.**

Ekoloji tarazlığın pozulması artıq təkcə təbiətin deyil, ümumən planetin və insanların sağlamlığı üçün böhrana yol aça biləcək ciddi siqnaldır. Azərbaycan Tibb Universitetinin (ATU) magistratura pilləsinin «İctimai səhiyyə» ixtisasının bu çağırışlara cavab verən "Ətraf mühit və sağlamlıq" ixtisaslaşması səhiyyə sisteminin elmi, analitik və profilaktik imkanlarının genişləndirilməsinə xidmət edəcək. İxtisaslaşmanın əsas istiqaməti tibb, ekologiya, epidemiologiya və gigiyena elmlərinin kəsişməsində formalaşan ekoloji riskləri qiymətləndirən və preventiv strategiyalar hazırlayan mütəxəssislər hazırlamaqdır.




Bu barədə ATU-nun mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, ətraf mühit və sağlamlıq mütəxəssisləri havanın, suyun, torpağın çirklənməsinin və onların qida zəncirinə təsirinin qiymətləndirilməsində, xroniki və infeksion xəstəliklərin epidemioloji monitorinqinin aparılmasında, iqlim dəyişikliyinin fəsadlarına qarşı planların hazırlamasında, dövlət səviyyəsində ekoloji monitorinqlərin təşkilində və idarə olunmasında iştirak edəcəklər. Məqsəd xəstəliklərin səbəb-nəticə əlaqələrini dəqiqləşdirərək, əhalinin yaşadığı mühitin təhlükəsizlik səviyyəsini qiymətləndirməkdir.

İşğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı»nda Ətraf mühit və sağlamlıq ixtisaslaşmasını bitirən mütəxəssislərin rolu müstəsnadır. Qarabağ zonasında 30 il hərbi əməliyyatlar və ekoloji terror nəticəsində zərər görmüş su mənbələrinin, kəhrizlərin, torpağın və bitki örtüyünün gigiyenik qiymətləndirilməsi əhalinin təhlükəsiz məskunlaşması və sağlamlığın qorunması üçün böyük əhəmiyyət kəsb edir.

Milli səhiyyə təhlükəsizliyinin mühüm tərkib hissəsi olan bu mühüm ixtisas məzunlara geniş fəaliyyət və karyera perspektivi yaradacaq. Onlar səhiyyə müəssisələrində, dövlət qurumlarında, elmi-tədqiqat institutlarında, aidiyyəti laboratoriyalarda, QHT və beynəlxalq təşkilatlarda sərbəst çalışmaq imkanına malik olacaqlar.

Məzunlar xəstəliklərin profilaktikası, epidemioloji cavab tədbirləri, iqlim və ətraf mühit sağlamlığı, fövqəladə halların idarəolunması, səhiyyə siyasətinin formalaşdırılması və strateji kommunikasiya sahələrində liderlik şansı qazanacaqlar. Onlar Səhiyyə, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərində, TƏBİB, İctimai Səhiyyə və İslahatlar Mərkəzində, Gigiyena və Epidemiologiya mərkəzlərində, BMT-nin layihələrində və universitetlərdə analitik, tədqiqatçı, proqram meneceri, ekspert və pedaqoq kimi də fəaliyyət göstərə biləcəklər.

«Magistratura pilləsinin «İctimai səhiyyə» ixtisasının «Ətraf mühit və sağlamlıq» ixtisaslaşması milli səhiyyə təhlükəsizliyinin və davamlı inkişafın mühüm tərkib hissəsidir. Bu istiqamət üzrə hazırlanan yüksəkixtisaslı mütəxəssislər profilaktik təbabətin və ekoloji təhlükəsizliyin elmi-praktik bazasını gücləndirərək, gələcək nəsillərin sağlamlığının etibarlı qorunması kimi mühüm fəaliyyət sahəsində ölkəmizə şərəfli xidmət göstərəcəklər», - deyə məlumatda bildirilir.

# Laçında səyyar stomatoloji aksiya təşkil edilib




**Səhiyyə Nazirliyi «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində həmin bölgələrdə əhalinin sağlamlığının qorunması və keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının artırılması istiqamətində səyyar tibbi aksiyaları davam etdirir. Növbəti belə aksiya Laçın Rayon Mərkəzi Xəstəxanasında təşkil olunub.**

Bu barədə nazirliyin mətbuat xidmətindən məlumat verilib ki, Səhiyyə Nazirliyinin təşkilatçılığı və Azərbaycan Tibb Universitetinin Tədris Stomatoloji Klinikasının həkim briqadasının iştirakı ilə keçirilən aksiya zamanı rayon sakinləri, eləcə də Böyük Qayıdış Proqramı çərçivəsində bölgədə çalışan mütəxəssislər ödənişsiz stomatoloji müayinələrdən keçirilib, onlara müvafiq konsultativ tibbi xidmət göstərilib.

Aksiya çərçivəsində müasir tibbi texnologiyalardan olan BPR Swiss SMART-PORT portativ stomatoloji qurğusundan istifadə edilib. Tam avtonom iş rejiminə malik olan bu innovativ sistem səyyar şəraitdə yüksəkkeyfiyyətli stomatoloji xidmətlərin göstərilməsinə imkan yaradır. Qurğunun qısa müddətdə quraşdırılması, fasiləsiz işləməsi və mikromotor, ultrasəs skaler, üçfunksiyalı şpris kimi avadanlıqlarla təchiz




olunması müalicə prosesinin operativ və rahat təşkilinə şərait yaradıb. Laçın sakinləri portativ stomatoloji qurğunun imkanlarından istifadə etməklə yerində tam stomatoloji müayinə və müalicə xidmətləri alıblar. Bu yanaşma həm tibbi xidmətlərin əlçatanlığını artırıb, həm də vətəndaşların əlavə vaxt sərf etmədən müayinədən keçməsinə imkan verib.

Aksiyanın əsas məqsədi ağız və diş sağlamlığının qiymətləndirilməsi, stomatoloji xəstəliklərin erkən aşkarlanması, profilaktik tədbirlərin həyata keçirilməsi və əhali arasında sağlam həyat tərzinin təşviqindən ibarət olub.

Azərbaycan Tibb Universitetinin Tədris Stomatoloji Klinikasının direktoru İmran Ağayevin rəhbərliyi ilə stomatoloq-terapevt, ortodont, ortoped, cərrah və uşaq stomatoloqlarından ibarət həkim briqadası tərəfindən ətraflı müayinələr aparılıb. Ümumilikdə 90-a yaxın vətəndaş tibbi müayinədən keçirilib, ehtiyac olan şəxslərə müalicə prosedurları icra olunub, profilaktik tövsiyələr və fərdi konsultasiyalar verilib.

Böyük Qayıdış Proqramı çərçivəsində səyyar tibbi aksiyalar işğaldan azad edilmiş ərazilərdə əhalinin keyfiyyətli səhiyyə xidmətlərinə çıxışının genişləndirilməsinə, erkən diaqnostikanın təşviqinə və bölgələrdə sağlam həyat mühitinin formalaşdırılmasına mühüm töhfə verir.

# Lisenziyasız kosmetoloji fəaliyyət göstərən şəxs barəsində qanuni tədbirlər görülüb



**«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) öz səlahiyyətləri çərçivəsində özəl tibb fəaliyyətinə dair planlı və plandankənar yoxlamalar aparır. Yoxlamalar zamanı aşkar edilən hüquqpozmalar aktlaşdırılır və qanunvericiliyə uyğun müvafiq tədbirlər görülür.**

Bu barədə Mərkəzdən verilən məlumata görə, kosmetoloji fəaliyyətlə məşğul olan fərdi sahibkar Canlı Elnarə Fəxrəddin qızının fəaliyyəti ilə bağlı AEM-ə daxil olmuş vətəndaş müraciətləri və mediada yayılan məlumatlar əsasında qanunvericiliyin tələblərinə uyğun olaraq bir neçə dəfə araşdırma və plandankənar yoxlama həyata keçirilib.

«Belə ki, Bakı şəhəri, Yasamal rayonu, Zərgərpalan küçəsi, ev 100, mənzil 2 ünvanında fəaliyyət göstərən fərdi sahibkar Canlı Elnarə Fəxrəddin qızının lisenziya tələb olunan özəl tibb fəaliyyət növünü müvafiq lisenziya olmadan həyata keçirməsi ilə bağlı vətəndaş müraciəti əsasında AEM tərəfindən araşdırma aparılıb və ötən il mayın 8-də plandankənar yoxlama keçirilib. Yoxlama zamanı Elnarə Canlının lisenziya olmadan özəl tibb fəaliyyəti (kosmetoloji fəaliyyət) ilə məşğul olması müəyyən edilib.

Aşkar olunmuş hüquq pozuntusu ilə əlaqədar fərdi sahibkar barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 210.1-ci maddəsi ilə 08.05.2025-ci il tarixli, MN 2156869 nömrəli inzibati xəta haqqında protokol tərtib edilərək, qanunvericiliyə uyğun olaraq baxılması üçün aidiyyəti üzrə göndərilib.

Bundan əlavə, vətəndaş müraciəti və mediada yayılmış məlumatlar əsasında həmin şəxsin fəaliyyəti ilə bağlı daha iki plandankənar yoxlama keçirilib. Yoxlamalar nəticəsində inzibati məsuliyyət yaradan pozuntular müəyyən edilib və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 210.1-ci maddəsi üzrə 22.12.2025-ci il tarixli, MN 2406895 nömrəli və 20.02.2026-cı il tarixli, MN 2407064 nömrəli inzibati xəta haqqında protokollar tərtib edilərək qanunvericiliyə uyğun olaraq növbəti icraata göndərilib.

Sonuncu yoxlama zamanı fərdi sahibkar Canlı Elnarə Fəxrəddin qızının fəaliyyət ünvanı Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, ev 79, mənzil 8 olub.

AEM tərəfindən səlahiyyətləri çərçivəsində həyata keçirilmiş yoxlamalar və tətbiq edilmiş inzibati tədbirlərə baxmayaraq, fərdi sahibkarın lisenziya olmadan kosmetoloji fəaliyyətini davam etdirməsi müəyyən edilib. Bununla əlaqədar onun fəaliyyətinin dayandırılması istiqamətində əlavə hüquqi tədbirlərin görülməsi məqsədilə Səhiyyə Nazirliyi tərəfindən bu il martın 13-də Azərbaycan Respublikasının Baş Prokurorluğuna müraciət edilib.

Nazirliyin müraciətində lisenziya olmadan özəl tibbi fəaliyyətlə (kosmetoloji fəaliyyət) məşğul olma faktına hüquqi qiymət verilməsi və qanunvericiliyə uyğun müvafiq tədbirlərin görülməsi xahiş olunub.

Beləliklə, qeyd olunan şəxsin fəaliyyəti ilə bağlı Səhiyyə Nazirliyi və AEM tərəfindən qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində zəruri tədbirlər görülüb və məsələ ilə bağlı hüquq-mühafizə orqanına da müraciət edilib.

Əlavə olaraq bildirilir ki, vətəndaşlar özəl tibb müəssisələrində və aptek təşkilatlarında qanunsuz fəaliyyət, şikayət və ya digər pozuntularla bağlı AEM-ə aşağıdakı vasitələrlə məlumat verə bilərlər:

**«Bir pəncərə» sektoru;**
**Qaynar xətt: (012) 596 05 20;**
**E-poçt: aem@pharma.az;**
**Rəsmi sayt: www.pharma.az**
**(“Müraciət” bölməsi).**
**Daxil olan müraciətlər qanunvericiliyin tələblərinə uyğun olaraq araşdırılır və zərurət yarandıqda səlahiyyətlər çərçivəsində müvafiq tədbirlər görülür”, - deyə məlumatda qeyd olunub.**

# AEM vətəndaşları aldatmaq məqsədli saxta məlumatlar və sənədlər barədə xəbərdarlıq yayıb

**«Sosial şəbəkələrdə Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin (AEM) adından istifadə edilməklə vətəndaşları aldatmağa yönəlmiş saxta məlumatlar və sənədlər yayılır. Həmin məlumatlarda guya AEM-in hansısa «Sandoz Pharma Departamenti» ilə birgə fəaliyyət göstərdiyi, «barkodçu» vəzifəsinə işçi qəbulu apardığı və namizədlərin məlumatlarının mərkəzin daxili reyestrində qeydiyyata alındığı iddia olunur. Tam məsuliyyətlə bildiririk ki, bu məlumatlar həqiqəti əks etdirmir və saxtadır».**

Bu barədə AEM-dən verilən məlumatda bildirilib ki, yayılan saxta sənədin sonunda guya «AEM Sandoz Pharma Departamentinin İnsan Resursları Departamentinin Etibar Abdalov» adlı şəxsin imzası göstərilib. «AEM-də Etibar Abdalov adlı şəxs çalışmır. Bundan əlavə, sənəd avqustun 2-də yayılsa da, onun üzərində «03.08.2026» tarixi qeyd olunub. Bu ziddiyyət sənədin saxta olduğunu açıq şəkildə göstərir. Bundan başqa, işə qəbul adı altında vətəndaşlarla əlaqə saxlayan şəxs özünü «Səhiyyə Nazirliyinin AEM-in tabeçiliyində fəaliyyət göstərən «Sandoz Pharma» şirkətinin İnsan resursları üzrə baş koordinatoru Fariz Heydərov» kimi təqdim edir və vətəndaşdan guya «müqavilə rekvizitlərinin rüsumu» adı ilə müəyyən bank hesabına pul köçürməsini tələb edir. Bir daha bildiririk ki, AEM-in tabeliyində nəinki «Sandoz Pharma», ümumiyyətlə, heç bir özəl şirkət fəaliyyət göstərmir. AEM belə ad altında işə qəbul aparmır. AEM tərəfindən işə qəbul zamanı heç bir ödəniş tələb edilmir. Vətəndaşlardan hər hansı hesaba pul köçürülməsi tələb olunmur. Həmçinin sosial şəbəkələrdə yayılan «barkodçu» vəzifəsi ilə bağlı məlumatlar da həqiqəti əks etdirmir», - deyə məlumatda vurğulanıb.

Həmçinin qeyd edilib ki, AEM dərman vasitələrinə xətti barkod (GTINEAN) vermir. GTIN (Global Trade Item Number) məhsulun beynəlxalq identifikasiya nömrəsidir və istehsalçı və ya qeydiyyat vəsiqəsinin sahibi tərəfindən GS1 beynəlxalq standartları əsasında əldə edilir. Başqa sözlə, GTIN və xətti barkod AEM tərəfindən deyil, məhsulu istehsal edən və ya qeydiyyatdan keçirən şirkət tərəfindən rəsmiləşdirilir: «GS1 məhsulların beynəlxalq identifikasiyası üçün standartlar hazırlayan qeyri-kommersiya təşkilatıdır. Bu standartlar məhsulların bütün təchizat zənciri boyunca izlənilməsinə və məlumat mübadiləsinin vahid qaydada aparılmasına xidmət edir. AEM-in tətbiq etdiyi Dərman vasitələrinin təqib və izləmə sistemi çərçivəsində isə dərman vasitələrinin hər bir satış qablaşdırması üçün DataMatrix identifikasiya kodu formalaşdırılır. Bu kodun tərkibində GTIN, unikal seriya nömrəsi, partiya (lot) nömrəsi və son istifadə tarixi yer alır. Məhz bu məlumatlar dərman vasitələrinin istehsaldan son istehlakçıya qədər hərəkətinin izlənilməsinə, saxta dərman vasitələrinin dövriyyəsinin qarşısının alınmasına və təchizat zəncirində şəffaflığın təmin edilməsinə imkan verir. Beləliklə, dərman vasitələrinə GTIN (xətti barkod)


1 of 2
AZƏRBAYCAN RESPUBLIKASI
Səhiyyə Nazirliyi
Analitik Ekspertiza Mərkəzi
İŞƏ QƏBUL AKTI
N 488 saylı
Tarix: 03 avqust 2026-cı il
Təqdim olunduğu tarix: 01 avqust 2026-cı il
Vəzifə: Barkodçu
Qəbul edilən şəxsin İRD qəbul nömrəsi: HR5271727

| Predmet / Kateqoriya | Məlumat / Qeydiyyat Göstəricisi |
|---|---|
| Aktın Nömrəsi və Təsdiqi | [illegible] |
| RH Rekvizitləri | [illegible] |
| Eyniləşdirmə | [illegible] |
| Rəsmi Qeydiyyat | [illegible] |

Analitik Ekspertiza Mərkəzi
İnsan Resursları Departamentinin Direktoru
Etibar Abdalov


AZƏRBAYCAN RESPUBLIKASI SƏHIYYƏ NAZIRLIYI
Analitik Ekspertiza Mərkəzi
Rəsmi Təsdiq Aktı
Akt № 488

| | |
|---|---|
| Müraciət edən / Şəxs: | [redacted] |
| Vəzifə: | Barkodçu |
| Rəsmi Təsdiq: | AEM / EHP |
| SİMA RH: | 7382738283 |
| Əmr çıxışı: | 7282738 |

Təsdiq təyinatı RH eyniləşdirilmişdir.
İnsan Resursları Departamenti
Tarix: 03.08.2026

AEM tərəfindən deyil, beynəlxalq GS1 standartlarına uyğun olaraq istehsalçı və ya qeydiyyat vəsiqəsinin sahibi tərəfindən verilir. AEM-in səlahiyyətlərinə dərman vasitələri üçün xətti barkodun verilməsi aid deyil».

AEM vətəndaşlara bir daha müraciət edərək bildirib ki, işə qəbul, ödəniş və ya digər rəsmi prosedurlarla bağlı yalnız mərkəzin rəsmi məlumatlarına etibar etsinlər, naməlum şəxslərin göndərdikləri sənədlərə və ödəniş tələblərinə inanmasınlar, heç bir halda şəxsi məlumatlarını və pul vəsaitlərini üçüncü şəxslərə təqdim etməsinlər.

«Faktla bağlı AEM tərəfindən müvafiq dövlət strukturlarına müraciət ediləcək və qanunvericiliyə uyğun olaraq zəruri hüquqi tədbirlər görüləcək. AEM vətəndaşlara xatırladır ki, rəsmi işə qəbul elanları yalnız Mərkəzin rəsmi internet səhifəsi və rəsmi sosial media hesabları vasitəsilə yayımlanır», - deyə məlumatda vurğulanıb.

# Minilliklər boyu körpənin ehtiyaclarına uyğun formalaşmış ana südü

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə hər il dünyada avqustun 1-dən 7-dək Ümumdünya Ana Südü ilə Qidalanma Həftəsi keçirilir. Həftənin təsis edilməsi 1990-cı ildə ÜST və BMT-nin Uşaq Fondu (UNICEF) tərəfindən ana südü ilə qidalanmanın qorunması, təşviqi və dəstəklənməsinə yönəlmiş İnnoçeti Bəyannaməsinin qəbul edilməsi ilə əlaqədardır. Ümumdünya Ana Südü ilə Qidalanma Həftəsinin qeyd edilməsində məqsəd qadınları ana südü ilə qidalandırmanın sağlamlıq faydaları haqqında məlumatlandırmaqdır. Bu həftə hər il ölkəmizdə də müxtəlif tədbirlərlə qeyd olunur. Həftə çərçivəsində həyata keçirilən tədbirlərdə körpələrin ana südü ilə qidalandırılması təbliğ və təşviq edilir, ana südü ilə qidalandırmanın üstünlükləri barədə geniş maarifləndirmə aparılır.**

**Ana südü yenidoğulmuş körpə üçün təbiətin yaratdığı ən mükəmməl qidadır. O, təkcə körpənin qidalanmasını təmin etmir, həm də immun sisteminin formalaşmasına, körpənin beyninin inkişafına və infeksiyalardan qorunmasına mühüm töhfə verir. Mütəxəssislər bildirirlər ki, ana südünün faydaları doğuşun ilk saatlarından başlayaraq uşağın uzunmüddətli sağlamlığına qədər uzanır.**

**Səhiyyə Nazirliyi K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun pediatrı Sevinc Mehdiyeva nazirliyin mətbuat xidmətinə ana südünün əvəzolunmaz üstünlükləri, kolostrumun əhəmiyyəti, vaxtından əvvəl doğulmuş körpələr üçün rolu haqqında müsahibə verib.**



**- Ana südü niyə yenidoğulmuşlar üçün ideal qida hesab olunur?**

- Spesifik bir məhsul olan ana südü minilliklər boyu körpənin hər inkişaf mərhələsindəki ehtiyaclarına uyğun şəkildə formalaşıb. Zülal, yağ və karbohidratların nisbəti hələ yetkinləşməmiş həzm sisteminə uyğun tənzimlənir, buna görə də qida maddələri bağırsaq və böyrəklərə minimal yük yaradaraq səmərəli mənimsənilir. Məsələn, süd zərdabı ilə kazeinin nisbəti südün laxtasını yumşaq və asan həzm olunan edir, yağ tərkibi isə uzunzəncirli doymamış yağ turşuları ilə zəngin olduğundan ilk aylarda beyin və gözün torlu qişasının sürətli inkişafını dəstəkləyir.

Lakin ana südü sadəcə qida maddələrinin daşıyıcısı deyil. Bu canlı mayenin tərkibində anticisimlər, canlı ağ qan hüceyrələri, fermentlər, hormonlar və böyümə amilləri var ki, bunların heç birinə süni qarışıqda rast gəlinə bilməz. Hətta bir dəfə əmizdirmə zamanı belə ana südünün tərkibi dəyişir və gün ərzində fərqlənir. Əmizdirmənin sonuna doğru süd daha yağlı olur, immun tərkibi isə ana və körpənin qarşılaşdığı patogenlərə uyğun tənzimlənir. Buna görə də bu süd yalnız qida deyil, yenidoğulmuş körpənin böyüməsini, immun sistemini və bağırsaq inkişafını dəstəkləyən dinamik bioloji mayedir.

Ana südü yalnız qida və immunoloji müdafiə vasitəsi deyil, həm də bioloji informasiya daşıyıcısıdır. Müasir tədqiqatlar göstərir ki, ana südünün tərkibində müxtəlif genetik materiallar, o cümlədən mikroRNT-lər, messenger RNT-lər, hüceyrədənkənar vezikullar və canlı ana hüceyrələri mövcuddur. Bu komponentlər körpənin immun sisteminin inkişafında, hüceyrə fəaliyyətinin tənzimlənməsində və gen ekspressiyasına təsir göstərən epigenetik proseslərdə müəyyən rol oynaya bilər.

Ana südü vasitəsilə ötürülən bu bioloji siqnallar ana ilə körpə arasında molekulyar səviyyədə ünsiyyət formalarından biri hesab edilir. Xüsusilə, südün tərkibindəki mikroRNT-lərin bəzi genlərin aktivliyini tənzimləyərək immun cavabın formalaşmasına və inkişaf proseslərinə təsir göstərə biləcəyi ehtimalı irəli sürülüb. Bununla belə, bu mexanizmlərin insan sağlamlığına uzunmüddətli təsirlərinin tam aydınlaşdırılması üçün əlavə tədqiqatlara ehtiyac vardır.

Beləliklə, ana südü yalnız enerji və qida maddələrinin mənbəyi deyil, həm də körpənin inkişafına təsir göstərə bilən mürəkkəb bioloji və genetik informasiya daşıyıcısı kimi qiymətləndirilir.

**- İlk günlərdə ağız südünün (kolostrumun) əhəmiyyəti nədir?**

- Kolostrum doğuşdan sonrakı ilk iki-dörd gün ərzində ifraz olunan qatı, sarımtıl rəngli süddür və miqdarı az olsa da (bəzən bir dəfəyə cəmi bir neçə çay qaşığı qədər), qoruyucu və funksional komponentlərin qatılığı əhəmiyyətli dərəcədə yüksəkdir. Xüsusilə sekretor IgA ilə zəngindir, bu immunoqlobulin yenidoğulanın bağırsaq divarını qoruyucu təbəqə kimi örtərək zərərli bakteriya, virus və allergenlərin qan dövranına keçməsinin qarşısını alır.

Kolostrum həmçinin təbii işlədici təsir göstərərək körpənin mekonium (tünd, yapışqan ilk nəcis) ifraz etməsinə kömək edir. Bunun klinik əhəmiyyəti ondan ibarətdir ki, orqanizmdə qalan mekonium bilirubinin yenidən qana sorulmasına və yenidoğulanlarda sarılığın artmasına səbəb ola bilər. Erkən və tez-tez nəcis ifrazını təmin etməklə kolostrum əhəmiyyətli sarılıq riskini dolayı yolla azaldır. Valideynlərə tez-tez izah edirik ki, südün az miqdarda ifrazı təbii haldır, südün yetərsizliyinin əlaməti deyil. Doğuşdan sonrakı ilk gündə körpənin mədəsi cəmi bir paxla dənəsi böyüklüyündədir və çox az miqdarda qidaya ehtiyacı var.

**- Vaxtından əvvəl doğulmuş körpələr üçün ana südünün əhəmiyyətini niyə xüsusi olaraq vurğulayırlar?**

- Vaxtından əvvəl doğulmuş körpələrin bağırsaq baryeri hələ yetkinləşməmiş, immun sistemi isə tam formalaşmamış olur, bu da onları infeksiyalara və nekrotik enterokolitə (NEK) - bağırsaq toxumasının ciddi, bəzən həyat üçün təhlükəli iltihabına qarşı daha həssas edir. Çoxsaylı tədqiqatlar göstərir ki, vaxtından əvvəl doğulmuş körpələrin süni qarışıq əvəzinə ana südü ilə qidalanması NEK-in rastgəlinmə tezliyini əhəmiyyətli dərəcədə azaldır, xəstəlik baş versə belə, adətən daha yüngül gedişatla müşayiət olunur.

Xüsusilə diqqətəlayiq faktdır ki, vaxtından əvvəl doğan ananın südü doğuşu vaxtında olan ananın südü ilə eyni tərkibə malik deyil. Belə süd zülal, müəyyən yağlar, natrium, laktoferrin və sekretor IgA kimi immun qoruyucu amillər baxımından daha yüksək qatılığa malikdir. Bu, sanki vaxtından əvvəl doğulmuş körpənin sürətlənmiş böyümə tələbatına və həssas bağırsağına xüsusi uyğunlaşdırılmış kimi görünür. Bu səbəbdən vaxtından əvvəl doğmuş analara, körpə hələ döşdən birbaşa qidalana bilməsə belə, südün erkən dövrdə və müntəzəm şəkildə sağılması tövsiyə olunur. Həmçinin, mümkün olduqda, süni qarışıq əvəzinə ananın öz südünə üstünlük verilir. Lakin ana südünün tərkibi zamanla dəyişir. Doğuşdan təxminən 4-6 həftə sonra preterm südün zülal və bəzi digər qida maddələrinin miqdarı azalır və onun tərkibi vaxtında doğulmuş körpələrin analarında yaranan südün tərkibinə getdikcə daha çox bənzəyir. Bu dövrdə vaxtından əvvəl doğulmuş körpənin zülal və enerjiyə ehtiyacı hələ də yüksək ola bilər.

***- Əmizdirmə körpənin yalnız yenidoğulma dövründə sağlamlığına təsir göstərir? Yoxsa onun uzunmüddətli sağlamlığa da təsiri var?***

- Hər ikisinə təsir edir. Qısamüddətli perspektivdə əmizdirilən körpələrdə tənəffüs yolu infeksiyaları, orta qulaq infeksiyaları və mədə-bağırsaq xəstəlikləri daha az müşahidə olunur, çünki hər əmizdirmə zamanı ana anticisimləri və immun amilləri körpəyə ötürməkdə davam edir. Bu qoruyucu təsir xüsusilə körpənin öz immun sisteminin hələ yetkinləşmədiyi ilk il ərzində daha bariz şəkildə özünü göstərir.

Uzunmüddətli perspektivdə əmizdirmə uşaqlıq dövründə piylənmə və 2-ci tip şəkərli diabet riskinin nisbətən aşağı olması ilə əlaqələndirilir. Bundan əlavə, bəzi tədqiqatlar əmizdirmənin koqnitiv (idrak) inkişaf baxımından müəyyən üstünlüklər təmin edə biləcəyini göstərir.

**- Ananın qidalanması, maye qəbulu və vərdişləri südün keyfiyyətinə necə təsir edir?**

- Bu, analar tərəfindən ən çox verilən suallardan biridir və cavabı kifayət qədər təsəllivericidir: ana südünün tərkibi yüksək dərəcədə tənzimlənən və dayanıqlı sistemə malikdir. Ananın qidalanması optimal olmadıqda belə, orqanizm süd istehsalına üstünlük verir və südün qida dəyərini qorumaq üçün öz ehtiyatlarından, o cümlədən kalsium, dəmir və digər qida maddələrindən istifadə edir. Bu proses bəzi hallarda ananın qida ehtiyatlarının azalması hesabına baş verə bilər. Bununla belə, balanslaşdırılmış və yetərli qidalanma həm ananın doğuşdan sonrakı bərpası və enerji tələbatının qarşılanması, həm də ana südünün müəyyən komponentlərinin tərkibinin qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Xüsusilə, südün yağ turşularının profili, eləcə də D vitamini, B12 vitamini və yod kimi bəzi mikroelementlərin səviyyəsi müəyyən dərəcədə ananın qida qəbulu və qidalanma statusundan asılıdır. Ümumiyyətlə, gündə əlavə 300-500 kalori, yetərli zülal və vitaminlərin, eləcə də kifayət qədər mayenin qəbulu tövsiyə olunur. Uzunmüddətli maye çatışmazlığı süd miqdarında müəyyən azalmaya səbəb ola bilər, ancaq bu adətən südün tərkibinə təsir etmir.

Ananın zərərli vərdişləri isə ana südünün tərkibinə təsir edir. Spirtli içki və narkotik maddələr ana südünə keçir. Bu zaman bu maddələrdən tamamilə imtina edilməlidir. Siqaret çəkmək tövsiyə edilmir, çünki nikotin südə keçərək körpənin yuxu və qidalanma rejiminə təsir edə bilər. Mülayim miqdarda kofein - gündə təxminən 2-3 fincan qəhvə - təhlükəsiz sayılır, çünki südə keçən miqdar çox azdır. Bəzi dərmanlar da davam edən əmizdirmə zamanı həkimlə mütləq şəkildə müzakirə olunmalıdır.

**- Əmizdirmənin əks göstəriş olduğu vəziyyətlər varmı?**

- Bəli, əmizdirmənin mütləq və ya nisbi əks göstəriş hesab olunduğu bəzi nadir hallar mövcuddur. Bununla belə, əksər hallarda əmizdirmə həm ana, həm də körpə üçün təhlükəsiz və faydalıdır.

Körpə ilə bağlı mütləq əks göstərişlərdən ən mühümü klassik qalaktozemiyadır. Bu nadir irsi metabolik xəstəlik zamanı körpə ana südündə olan qalaktozanı mənimsəyə bilmir, buna görə də ana südü ilə qidalanma tövsiyə edilmir.

Ana ilə bağlı əks göstərişlərə isə müəyyən infeksiyalar və bəzi dərman preparatlarının istifadəsi daxildir. Məsələn, müalicə olunmamış aktiv vərəm xəstəliyi, insan T-hüceyrəli limfotrop virusu infeksiyası və ya kimyaterapiya preparatlarının qəbulu zamanı əmizdirmə məhdudlaşdırıla və ya dayandırıla bilər. Bundan əlavə, radioaktiv maddələrin tətbiqi və ya körpə üçün təhlükəli hesab olunan bəzi dərmanların istifadəsi hallarında da müvəqqəti olaraq əmizdirməyə fasilə verilməsi tələb oluna bilər.

Əksinə, əvvəllər geniş yayılmış yanlış təsəvvürlərdən fərqli olaraq, əksər adi infeksiyalar, o cümlədən soyuqdəymə, qrip və bir çox digər virus infeksiyaları zamanı əmizdirmənin davam etdirilməsi tövsiyə olunur. Çünki ana südü körpəyə qoruyucu anticisimlər və digər immun amillər ötürərək infeksiyalara qarşı müdafiəni gücləndirə bilər.

Nəticə etibarilə, əmizdirmənin əks göstərişləri nisbətən nadir hallarda rast gəlinir və hər bir vəziyyət fərdi qaydada qiymətləndirilməlidir. Ana hansısa xəstəlik və ya dərman istifadəsi ilə bağlı narahatlıq keçirdikdə, əmizdirməni dayandırmazdan əvvəl mütləq həkimlə məsləhətləşməlidir. Ailələrə vurğulamaq lazımdır ki, bunlar qayda deyil, istisnadır - anaların böyük əksəriyyəti, o cümlədən bir sıra dərmanları qəbul edən, xroniki xəstəliyi nəzarətdə olan və ya adi cərrahi əməliyyat keçirənlər belə əmizdirməyə davam edə bilərlər.

*(Davamı 10-cu səhifədə)*

# Qorxu nə vaxt fobiyaya çevrilir?

**Qorxu insanı təhlükələrdən qoruyan ən təbii emosiyalardan biridir. Lakin bəzən bu hiss real təhlükə olmadığı halda belə, insanın davranışlarını idarə etməyə başlayır, gündəlik həyatını məhdudlaşdırır, sosial əlaqələrinə, peşəkar fəaliyyətinə mane olursa, artıq söhbət fobiyadan gedir. Fobiyalar insanın həyat keyfiyyətini əhəmiyyətli dərəcədə aşağı sala bilən psixoloji vəziyyətlərdən biri hesab olunur. Onlar müxtəlif səbəblərdən yarana, uzun illər davam edə və müalicə olunmadıqda insanın gündəlik seçimlərinə təsir göstərə bilər. Səhiyyə Nazirliyi Sanator-Kurort Reabilitasiya Mərkəzinin psixoloqu Lalə Nəzərova ilə fobiyanın adi qorxudan fərqi, yaranma səbəbləri, insan orqanizmində yaratdığı dəyişikliklər və müasir müalicə üsulları barədə müsahibəni təqdim edirik.**

**- Lalə xanım, fobiya nədir və adi qorxudan hansı cəhətlərinə görə fərqlənir?**

- Qorxu insanın psixikasında mövcud olan ən təbii hisslərdən biridir. Bu hiss insanı təhlükəli vəziyyətlərdən qorumağa xidmət edir. Məsələn, insan sürətlə gələn avtomobili gördə instinktiv şəkildə kənara çəkilir. Bu zaman beyin təhlükəni tanıyır və bədəni müdafiə reaksiyasına hazırlayır. Bu səbəbdən qorxu müəyyən həddə qədər insanın həyatında faydalı rol oynayır. Lakin bəzi hallarda qorxu normal sərhədləri aşır və insanın gündəlik həyatına mənfi təsir göstərməyə başlayır. Bu vəziyyət psixologiyada fobiya adlanır.

Fobiya insanın müəyyən obyektə, vəziyyətə və ya hadisəyə qarşı yaşadığı həddindən artıq və nəzarət olunması çətin olan qorxu reaksiyasıdır. Bu qorxu çox vaxt real təhlükə ilə uyğun gəlmir və insan onun əsassız olduğunu anlasa belə, həmin reaksiyanı idarə etməkdə çətinlik çəkir. Məsələn, lift fobiyası olan bir insanı təsəvvür edək. O, çoxmərtəbəli binada işləyir, lakin liftdən istifadə etməkdən qorxur. Halbuki texniki baxımdan liftlər olduqca təhlükəsiz nəqliyyat vasitələrindən hesab olunur. Buna baxmayaraq, həmin insan liftdə olanda ürək döyüntüsünün sürətləndiyini hiss edir, əlləri tərləyir və bəzən panik yaşayır. Nəticədə, o, hər gün onlarla mərtəbə pilləkən qalxmağa məcbur qalır.




Başqa bir nümunə isə heyvan fobiyasıdır. Bəzi insanlar it və ya pişik kimi ev heyvanlarından həddindən artıq qorxurlar. Halbuki həmin heyvanlar təhlükəli olmaya bilər. Lakin insanın beynində həmin obyekt təhlükə kimi kodlaşdırıldığı üçün bədən avtomatik qorxu reaksiyası verir.

Fobiya zamanı insanın qorxu reaksiyası məntiqdən daha çox emosional və şüuraltı mexanizmlərlə bağlı olur. İnsan qorxunun əsassız olduğunu başa düşsə belə, həmin hissi tam nəzarətdə saxlaya bilmir.

**- Fobiyalar necə yaranır?**

- Fobiyaların yaranması müxtəlif psixoloji və bioloji faktorların təsiri ilə baş verir. Çox vaxt bu amillər insanın keçmiş təcrübəsi, emosional yaddaşı və tərbiyə mühiti ilə əlaqəli olur. Ən əsas səbəblərdən biri travmatik hadisələrdir. İnsan keçmişdə qorxulu və ya təhlükəli bir hadisə yaşadıqda həmin hadisə şüuraltında güclü iz buraxa bilər. Bu iz zaman keçdikcə müəyyən obyektə və ya vəziyyətə qarşı davamlı qorxu reaksiyasına çevrilə bilər. Məsələn, uşaqlıqda it tərəfindən dişlənmiş uşaq böyüdükdə bütün itlərdən qorxa bilər. Beyin həmin hadisəni təhlükə kimi yadda saxlayır və oxşar vəziyyətlərdə eyni qorxu reaksiyasını yaradır.

Digər səbəb isə öyrənilmiş qorxudur. İnsan bəzən qorxunu öz təcrübəsi ilə deyil, başqalarının davranışını müşahidə etməklə də öyrənə bilər. Məsələn, valideyn daim uşağa «qaranlıq təhlükəlidir», «it yaxınlaşsa, dişləyər» kimi xəbərdarlıqlar edərsə, uşaq bu fikirləri həqiqət kimi qəbul edə bilər. Bəzən isə fobiya insanın düşüncə prosesindən yaranır. İnsan müəyyən hadisə haqqında mənfi ssenarilər qurur və bu ssenarilər zamanla qorxu reaksiyasını gücləndirir.

**- Fobiya insan həyatına necə təsir edir?**

- İnsanın gündəlik həyatına fobiyalar müxtəlif formalarda təsir göstərə bilər. Ən çox müşahidə olunan təsir insanın qorxduğu vəziyyətlərdən qaçmağa çalışmasıdır. Məsələn, uçuş fobiyası olan bir insan təyyarə ilə səyahət etməkdən imtina edə bilər. Bu isə onun həm şəxsi, həm də peşəkar həyatına təsir edə bilər. Sosial fobiya yaşayan insanlar isə ictimai mühitdə danışmaqdan çəkinirlər. Onlar çıxış etməkdən, yeni insanlarla tanış olmaqdan və öz fikirlərini açıq ifadə etməkdən qorxurlar. Belə insanlar tez-tez başqalarının onları tənqid edəcəyini və ya onlara güləcəyini düşünürlər. Uzun müddət davam edən fobiyalar insanın özünə inamını azalda və sosial münasibətlərini zəiflədə bilər.



**- Fobiya zamanı insan orqanizmində nə baş verir?**

- İnsanın beynində təhlükə ilə bağlı mexanizmlər real təhlükə zamanı olduğu kimi, fobiya zamanı da aktivləşir. Bu prosesdə beynin qorxu reaksiyalarını idarə edən hissələri mühüm rol oynayır. Beyin təhlükə siqnalı aldıqda bədən «qaç və ya döyüş» reaksiyasına hazırlaşır. Bu zaman ürək döyüntüsü sürətlənir, nəfəs tezləşir və əzələlər gərilir. Bu reaksiyalar real təhlükə zamanı insanı qorumağa kömək edir. Lakin fobiya zamanı bu mexanizm real təhlükə olmadığı halda belə aktivləşir. Məsələn, lift fobiyası olan insan liftdə qalanda sanki təhlükəli vəziyyətdə imiş kimi, panik hiss edə bilər.

**- Fobiyalar müalicə oluna bilərmi?**

- Müasir psixologiyada fobiyalar müalicə edilə bilən problemlərdəndir. Ən effektiv üsullardan biri ekspozisiya (üzləşdirmə) terapiyasıdır. Bu üsulda insan qorxduğu vəziyyətlə tədricən qarşılaşır. Məsələn, it fobiyası olan insan əvvəlcə it şəkillərinə baxır, sonra uzaqdan itləri müşahidə edir və daha sonra onlara yaxınlaşmağa başlayır. Digər üsul isə koqnitiv-davranış terapiyasıdır. Bu terapiyada insanın qorxu ilə bağlı düşüncə tərzi dəyişdirilir.

Fobiya insan psixikasında yaranan güclü qorxu reaksiyasıdır və bəzən insanın gündəlik həyatına ciddi təsir göstərə bilər. Lakin bu vəziyyət insanın zəifliyi deyil, psixoloji mexanizmlərin nəticəsidir. İnsan beyni təhlükəni bəzən olduğundan daha böyük qəbul edə bilir və bu zaman qorxu davranışa nəzarət etməyə başlayır.

Müasir psixologiya göstərir ki, düzgün yanaşma və psixoloji dəstək vasitəsilə fobiyalar aradan qaldırıla bilən problemlər sırasına daxildir. İnsan öz qorxusunun səbəblərini anladıqca və onunla mərhələli şəkildə üzləşməyi öyrəndikcə həyat daha az məhdudiyyətlə davam edir, psixoloji rahatlıq tədricən bərpa olunur.

# Qəzada iki qolunu itirən şəxsə qollar və çiyinlər transplantasiya olundu

**Bir qəza nəticəsində iki qolunu itirmiş Feliks Qretarsson iki qol və iki çiyin transplantasiyası ilə təbabət tarixinə düşdü.**

Feliks Qretarsson elektrik cərəyanı vurması səbəbindən hər iki qolundan məhrum olmuş, illər uzunu müalicə və reabilitasiya olunmuşdu. Bundan sonra Fransada son dərəcə mürəkkəb və çoxcəhətli cərrahiyyə əməliyyatı ilə ona iki qol və çiyin köçürülüb.

Transplantasiya olunan orqanların hərəkətini təmin etmək məqsədilə əməliyyat zamanı yalnız qollar deyil, çiyin bölgəsinin sümük, əzələ, damar və sinirlərini də əhatə edən böyük orqanlar qrupu nəql edilib. Bu səbəbdən, əməliyyat standart bir orqan transplantasiyasından daha mürəkkəb olub və daha uzun müddət vaxt tələb edib.

Bu orqanların köçürülməsinin ən çətin cəhətlərindən biri sinirlərin bağlanması idi. Sinir əlaqələrinin bərpasına xeyli vaxt tələb olunduğuna görə, qolların hərəkət və hissiyyat funksiyalarının yenidən qazanılması üçün uzunmüddətli reabilitasiya tədbirləri lazım oldu. Əməliyyatdan sonra aparılan uzunmüddətli fizioterapiya müalicəsi və reabilitasiya sayəsində Feliks Qretarsson qollarını hərəkət etdirməyə başladı, bir müddətdən sonra bəzi hərəkətlərinə nəzarət etməyi öyrəndi.



İki qol və çiyin nəqli cərrahların eyni anda sümük, damar, əzələ, vətər və sinirlər üzərində çalışmalı olduğu çox mürəkkəb və həssas bir cərrahi müdaxilədir. Bu cür əməliyyatlar ağır üzv itkisi yaşayan pasiyentlər üçün gələcəkdə yeni müalicə seçimləri yaradır.

Feliks Qretarssonun hadisəsi yalnız bir orqanın transplantasiyası deyil, insan orqanizmindəki fərqli toxumaların eyni anda işlənməsini hədəfə alan, təbabət aləminin ən mürəkkəb cərrahi rekonstruktiv əməliyyatlarından biri kimi diqqət çəkir.

# «Paxis» onkoloq və pasiyent arasında etibarlı körpü olacaq

*Azərbaycanlı mütəxəssisin süni zəka əsaslı startapı həm həkimlərə, həm də xəstələrə yardımçıdır*

**Ayşə Allahverdiyeva Azərbaycanı beynəlxalq elm, texnologiya və sahibkarlıq mühiti ilə birləşdirən gənc mütəxəssislərdən biridir. O, 18 yaşında təhsilini davam etdirmək üçün ABŞ-yə yollanıb. 2023-cü ildə Braun Universitetini koqnitiv neyroelm üzrə bakalavr dərəcəsi və «Data Fluency» üzrə sertifikatla bitirib. Bununla yanaşı, Universitetdə kompüter elmləri, antropologiya və ingilis ədəbiyyatı üzrə də dərslər alıb. Sonra təhsilini «NYU Courant»da biotibbi məlumatlar elmi üzrə magistr proqramında davam etdirib. Bu gün Ayşə təhsil və peşəkar fəaliyyət yolu, qazandığı təcrübə və uğurları ilə Azərbaycanın xaricdə gənc və istedadlı nümayəndələrindən biri kimi ölkəmizi layiqincə təmsil edir. Fəaliyyətinin əsas məqamları təbabətlə bağlı olduğuna görə, gənc mütəxəssisin AZƏRTAC-a verdiyi müsahibəni müəyyən ixtisarlarla oxucularımıza təqdim edirik.**

İlk olaraq təhsili barədə danışan həmsöhbət onun peşəkar inkişafındakı roluna toxunub:

- İnsanların düşüncə mexanizminə olan marağım mənə Braun Universitetində koqnitiv neyroelm sahəsində təhsil qazandırdı. Oradakı Karni İnstitutunda və Serr Laboratoriyasında beynin informasiyanı emal etməsi və qərarvermə prosesləri üzrə tədqiqatlar apardım. Beynin informasiyanı necə emal etdiyini və qərar verdiyini öyrəndim. Süni intellektin aktuallaşması fonunda bioloji və süni «beyinləri» öyrənməyin üstünlüyünü görərək, bu istiqaməti Nyu York Universitetində (NYU) biotibbi məlumatlar elmi üzrə magistr təhsili ilə dərinləşdirdim.

Tədqiqat fəaliyyətim çərçivəsində maddə istifadəsi riskinin modelləşdirilməsi, ürək-damar xəstəlikləri üzrə layihələr həyata keçirdim; bu işlər resenziyalı məqalələrdə dərc olundu. Həmçinin yaratdığım milli məlumat bazasına görə Braun Universitetinin Bakalavr Tədris və Tədqiqat Mükafatına layiq görüldüm.

Gələcəkdə təcrübəmi insan-kompüter qarşılıqlı əlaqəsi sahəsində doktorantura təhsili ilə davam etdirmək niyyətindəyəm.

**- Peşəkar yolunuzda hansı mərhələlər və qərarlar sizi sahibkar kimi formalaşdıraraq öz startapınızı yaratmağa gətirib?**

- Məzun olduqdan sonra ABŞ-nin aparıcı səhiyyə və sığorta şirkətlərindən olan «CVS HealthAetna»da maşın öyrənməsi modelləri hazırlayıb, FDA və CDC kimi dövlət qurumları üçün dələduzluğun aşkarlanması sistemləri qurmuşam. Paralel olaraq səhiyyə koalisiyalarında və müxtəlif startaplarda könüllü fəaliyyət göstərmişəm.

Daha sonra praktiki onkoloqlarla birgə istehsalatda tətbiq olunan onkoloji süni intellekt platforması yaratdım. Bu təcrübə və qərar sahibkarlıq yolumu müəyyənləşdirdi və hazırda həmtəsisçimlə birgə inkişaf etdirdiyim «Paxis» startapının əsasını qoydu.



**- Startap ideyası necə yarandı?**

- İdeya «NYU Langone»dakı təcrübəmdən formalaşdı. Onkoloqlarla müzakirələr göstərdi ki, ən böyük çətinliklərdən biri tək bir pasiyent üçün tibbi ədəbiyyatı araşdırmağa sərf olunan vaxtdır. Bunun həlli üçün 116 mindən çox klinik mənbə üzrə axtarış edən real onkoloji platforma qurub istifadəyə verdik.

Həkimlərlə sıx əməkdaşlıq zamanı sistemin hər iki tərəfindəki boşluğu aydın gördük: pasiyentlər müalicə planını tam anlamadan internetdə yanlış məlumatlar axtarır, onkoloqlar isə hər qəbulda eyni sualları cavablandırmaqdan yeni tədqiqatları izləməyə vaxt tapmırdılar. Reallaşdırdığımız sistemdə bu problemi canlı müşahidə etməyimiz bizi müstəqil və daha əhatəli bir həll yaratmağa sövq etdi.

**- Startapınız konkret olaraq hansı problemi həll edir? Təklifinizin əsas innovativ cəhəti, bazardakı mövcud həllərdən fərqi nədir?**

- «Paxis» onkoloqların vaxt darlığı ilə pasiyentlərin məlumat ehtiyacı arasındakı disbalansı aradan qaldırır. Hər qəbul üçün cəmi 15 dəqiqəsi olan həkimlər detallı izahlara vaxt tapmırlar. «Paxis» isə pasiyentlərə müalicə, simptom və hesabatlarla bağlı suallarına öz real tibbi məlumatlarına əsaslanan cavablar verir. Tibbi mühakimə tələb edən məsələlər birbaşa onkoloqa yönləndirilir, pasiyentin göstəriciləri isə son klinik sınaqlarla avtomatik uyğunlaşdırılır.

Platformanın etibarlılığını təmin edən əsas cəhət pasiyentin sistemə yalnız öz onkoloqunun dəvəti ilə qoşulmasıdır. Bazardakı mövcud tətbiqlər yalnız pasiyentə, «OpenEvidence» kimi xidmətlər isə yalnız həkimə fokuslandığı halda, «Paxis» eyni vaxtda hər iki tərəfin ehtiyacını qarşılaması ilə fərqlənir.

Əvvəlcə texnologiyanın ilkin versiyasını yaradaraq ideyanın real klinik şəraitdə işlədiyini sübut etdik. Həkimlərin müsbət rəyləri əsasında çatışmayan cəhəti - pasiyentlərlə birbaşa əlaqə modulunu əlavə edərək hər iki tərəf üçün tam təcrübə formalaşdırdıq.

Artıq həkimlər klinik sınaqları uyğunlaşdıran alət, pasiyentlər isə hesabatları izah edən tətbiq əldə ediblər. Məhsul birbaşa həkimlər tərəfindən sınaqdan keçirilib və onların rəyləri ilə davamlı təkmilləşdirilir. Rəsmi beta versiyadan öncə sistemi daha da yaxşılaşdırır və tibbi məsləhətçilər şəbəkəmizi genişləndiririk.

Hazırda «pre-seed» mərhələsindəyik. Tam funksional məhsulumuz aktivdir və klinik ədəbiyyatı konkret pasiyentlə uyğunlaşdıran unikal, patentləşdirilməsi planlaşdırılan alqoritmimiz var.

Növbəti mərhələdə 3-5 onkoloq və onların 20-50 pasiyenti ilə 90 günlük pilot layihəyə başlayırıq. Bu prosesdə təhlükəsizliyi, cavab keyfiyyətini və vaxta qənaəti izləyəcəyik. Komandanı genişləndirmək, tənzimləyici məsələləri həll etmək və ödənişli müştərilər cəlb etmək üçün 12 aylıq «pre-seed» maliyyələşməsi toplayırıq.

**- Startapın təsisçisi kimi qarşılaşdığınız ən ciddi çətinlik nə olub və bu təcrübə sizə nə öyrədib?**

- Ən böyük çətinlik süni intellekti sadəcə dəbdə olduğu üçün deyil, məqsədli tətbiq etmək, xüsusən modelin nə vaxt cavab verməyib sualı birbaşa həkimə yönləndirməli olduğunu dəqiq müəyyənləşdirmək idi. Bu, tibbi məlumatların təhlükəsizliyini və doğruluğunu qorumaq baxımından kritik idi.

Bir dəfə istifadəçilərin ehtiyac duymadığı funksiyaya həftələrlə vaxt sərf etməyimiz isə bizə böyük dərs oldu. Bu təcrübə həkim və pasiyentləri dinləməyi, yalnız onların real ehtiyaclarına cavab verən həllər yaratmağı öyrətdi.

**- Startapın inkişafının növbəti mərhələsi üçün əsas hədəfləriniz nələrdir? Layihənin yaxın illərdə regional və qlobal miqyasda inkişafını necə görürsünüz?**

- Növbəti 12 ayda əsas hədəfimiz qapalı beta sınaqlarını keçirmək, tənzimləyici hazırlığı və məxfilik təhlükəsizliyini tamamlamaq, eyni zamanda, cavabların dəqiqliyini insan nəzarəti ilə təsdiqləməkdir. Daha sonra məhsulu daha çox xərçəng növü və icma funksiyaları ilə zənginləşdirərək, iri tibb qurumları ilə tərəfdaşlığı genişləndirməyi planlaşdırırıq.

Modelin mürəkkəbliyinə görə fəaliyyətə onkologiyadan başlasaq da, gələcəkdə digər tibbi ixtisaslara və xəstəxana sistemlərinə inteqrasiya olunmağı da nəzərdə tuturuq. Əsas qayəmiz pasiyentlərlə həkimlər arasında qlobal miqyasda etibarlı körpü yaratmaqdır.

**- Bu yolda sizə uğurlar arzulayırıq.**

*(Əvvəli 8-ci səhifədə)*

**Uşaqlara allergen qidaların gec verilməsi doğru yanaşma deyil**

Ana südünün körpələrə faydası və əlavə qidaya keçid dövrü barədə AZƏRTAC-ın suallarını Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Gültəkin Novruzova cavablandırıb.

- Beynəlxalq Ana Südü Akademiyası təsdiqləyir ki, 12-24 ay arasında əmizdirmə ana üçün bioloji olaraq tam normal və təbii fizioloji prosesdir. Müasir klinik yanaşmaya əsasən, əmizdirmənin dayandırılması kənar təsirlərlə deyil, yalnız ana və uşağın birgə qərarı əsasında baş verməlidir. Lakin təəssüf ki, tibb işçiləri arasında belə, 1 yaşından sonra əmizdirməyə qeyri-adi və ya faydasız bir proses kimi baxmaq meyli var. Uşağın həyatının ikinci ilində ana südü gündəlik enerji tələbatının təxminən 38-45 faizini qarşılayır. O, yüksəkkeyfiyyətli zülalların, yağ turşularının, kalsiumun, A vitamininin və digər vacib mikroelementlərin mühüm mənbəyi olaraq qalır.

# Minilliklər boyu körpənin ehtiyaclarına uyğun formalaşmış ana südü

Qlobal strategiyalara baxdıqda, Beynəlxalq Ana Südü Akademiyasının bu tövsiyələri ÜST, UNICEF, Amerika Pediatriya Akademiyası və Amerika Ailə Həkimləri Akademiyasının rəsmi mövqeyi ilə tam uzlaşır. Yəni ilk 6 ay eksklüziv ana südü, 6 aydan sonra yaşa uyğun əlavə qidalar və əmizdirmənin ən azı 2 yaşa qədər davam etdirilməsi qızıl standartdır. 6 aydan əvvəl isə hər hansı bir allergiya profilaktikası və ya dəmir statusunu yaxşılaşdırmaq bəhanəsi ilə əlavə qidaların verilməsi elmi cəhətdən əsaslandırılmayıb.

**- Bir yaşdan sonra ana südünün uşaq orqanizminə hansı təsirləri var?**

- Uzunmüddətli əmizdirmənin körpəyə təsiri çoxşaxəlidir və üç əsas istiqamətdə qruplaşdırılır.

İlk növbədə, immunoloji qorunma. İkinci ildə də südün tərkibindəki immunqlobulinlər, laktoferrin və bioaktiv komponentlər körpəni respirator infeksiyalardan, orta qulaq iltihabından (otit) və kəskin ishal riskindən etibarlı şəkildə qorumağa davam edir.

İkinci istiqamət neyro-koqnitiv inkişafdır. Klinik tədqiqatlar aşkar edib ki, 12 aydan daha uzun müddət əmizdirilən uşaqların intellektual testlərdə koqnitiv və emosional inkişaf göstəriciləri daha yüksək olur.

Nəhayət, xroniki risklərin azalması. Uzunmüddətli əmizdirmə gələcək nəsillərin sağlamlığı üçün metabolik bir investisiyadır. Bu, gələcəkdə uşaqda artıq çəki (piylənmə), tip 2 diabet və digər metabolik pozulmaların yaranma ehtimalını minimuma endirir.

**- Allergiya baxımından əmizdirmənin faydası varmı?**

- Uzun illər allergiyanın qarşısını almaq məqsədilə allergen qidaların uşağa gec verilməsi tövsiyə edilirdi. Lakin müasir immunologiya bunun doğru yanaşma olmadığını göstərib. Hazırda sübut olunub ki, təxminən 4-6 aylıq dövr «immunoloji tolerantlıq pəncərəsi» hesab olunur. Bu mərhələdə bağırsaq və immun sistemi elə inkişaf mərhələsində olur ki, yaşa uyğun şəkildə təqdim olunan allergen qidalar orqanizm tərəfindən daha asan qəbul edilir və onlara qarşı tolerantlıq formalaşır. Xüsusilə bu proses ana südü ilə qidalanma fonunda daha effektiv gedir.

Müasir beynəlxalq tövsiyələrə əsasən, allergen qidaların uzun müddət gecikdirilməsi allergiya riskini azaltmır, əksinə, bəzi hallarda onun artmasına səbəb ola bilər. Əlbəttə ki, bütün əlavə qidalar uşağın inkişaf səviyyəsinə uyğun, pediatrın tövsiyələri nəzərə alınmaqla mərhələli şəkildə tətbiq edilməlidir. Ən vacib məsələ ailələrin düzgün məlumatlandırılmasıdır. Həkimlər valideynlərlə təzyiqedici deyil, dəstəkləyici ünsiyyət qurmalı, əmizdirmə zamanı yaranan çətinliklərdə peşəkar laktasiya dəstəyi göstərməlidirlər. Süd vəzisi problemləri və ya qidalanma çətinlikləri əmizdirmənin dayandırılması üçün səbəb hesab edilməməlidir.

Yekun olaraq deyim ki, ana südü ilə qidalandırma əlavə qidalarla yanaşı, ən azı 2 il davam etdirilməlidir.

# Sonsuzluqla bağlı hansı yanlış fikirlər var?

**Reproduktiv sağlamlıq təkcə hamiləlik, doğuş və sonsuzluq məsələlərini əhatə etmir. Müasir tibbi yanaşmaya əsasən, hormonal balans, həyat tərzi, immun sisteminin fəaliyyəti, ətraf mühit amilləri və metabolik proseslər reproduktiv sağlamlığın formalaşmasında mühüm rol oynayır. Bu baxımdan, reproduktiv sağlamlıq insanın ümumi sağlamlığının vacib göstəricilərindən biri hesab olunur. Səhiyyə Nazirliyi Ailə Planlanması Məsləhətxanasının mama-ginekoloqu Afət Ərəbova ilə reproduktiv sağlamlığa müasir tibbi baxış, bu sahədə geniş yayılmış yanlış təsəvvürlər və gələcəkdə reproduktiv sağlamlıq haqqında müsahibəni təqdim edirik.**



**- Reproduktiv sağlamlığa yalnız hamiləlik və doğuşdan daha geniş baxış tibbi baxımdan nəyi dəyişir və niyə bu yanaşma vacibdir?**

- Reproduktiv sağlamlığın yalnız hamiləlik və doğuşla məhdudlaşdırılmaması tibdə əsaslı düşüncə tərzi dəyişikliyi yaradır. Bu yanaşma göstərir ki, reproduktiv sistem yalnız bir funksiya üçün işləyən orqan deyil, bütün orqanizmin hormonal, metabolik və emosional sistemləri ilə sıx bağlı olan kompleks bir şəbəkədir. Bu baxışın ən vacib tərəfi ondan ibarətdir ki, reproduktiv sağlamlıq artıq yalnız “nəticə” (yəni hamilə qalmaq və ya qala bilməmək) kimi qiymətləndirilmir. Əksinə, orqanizmdə baş verən dəyişikliklərin erkən göstəricisi kimi qəbul edilir. Məsələn, menstrual tsiklin pozulması təkcə ginekoloji problem deyil, eyni zamanda, qalxanabənzər vəzin disfunksiyası, xroniki stress və ya metabolik pozuntunun ilkin siqnalı ola bilər. Bu səbəbdən müasir tibb reproduktiv sağlamlığı bütün ömür boyu davam edən ümumi sağlamlıq göstəricisi kimi dəyərləndirir.

**- Hormonlar bədənin digər sistemləri ilə necə əlaqəlidir?**

- Hormonal sistem orqanizmdə informasiya ötürən əsas biokimyəvi sistemdir. Reproduktiv funksiyalar bu sistem tərəfindən tənzimlənir. Hipotalamus və hipofiz vəzi vasitəsilə göndərilən siqnallar yumurtalıq və digər reproduktiv orqanların fəaliyyətini idarə edir. Lakin bu proses təkcə reproduktiv sistemlə məhdudlaşmır. Stress, yuxu rejimi, qidalanma və metabolik balans bu hormonal sistemə birbaşa təsir göstərir. Məsələn, xroniki stress reproduktiv hormonların ifrazını azalda, ovulyasiyanı gecikdirə bilər. İnsulin rezistentliyi yumurtalıq funksiyasını poza bilər, yuxu pozuntusu isə menstrual ritmin dəyişməsi ilə nəticələnər. Bu qarşılıqlı əlaqə göstərir ki, reproduktiv sağlamlıq bədənin ümumi fizioloji balansından ayrı düşünülə bilməz.

**- Reproduktiv sağlamlıqda həyat tərzinin rolu nədir?**

- Həyat tərzi reproduktiv sağlamlığın ən mühüm təyinedici amillərindən biridir, çünki reproduktiv sistem orqanizmin enerji balansına çox həssasdır. Bədən enerji çatışmazlığı və ya xroniki stress vəziyyətində reproduktiv funksiyanı ikinci plana keçirə bilər. Xroniki stress hormonların davamlı yüksək qalmasına səbəb olaraq reproduktiv sistemi zəiflədə bilər. Qidalanma isə hüceyrə səviyyəsində vacib rol oynayır. Dəmir, sink, fol turşusu və D vitamini kimi mikroelementlər və vitaminlər hormon sintezi və



reproduktiv hüceyrələrin inkişafı üçün əsasdır. Bu maddələrin uzunmüddətli çatışmazlığı reproduktiv potensialın tədricən azalmasına səbəb ola bilər.

**- İmmun sistemi reproduktiv sağlamlıqla necə əlaqəlidir?**

- Reproduktiv sistemlə immun sistemi arasında incə və dinamik qarşılıqlı əlaqə mövcuddur. Hamiləliyin erkən mərhələsində immun sistemi embrionu yad toxuma kimi rədd etməmək üçün xüsusi tolerantlıq formalaşdırır. Bu balans pozulduqda implantasiya prosesi çətinləşə və erkən hamiləlik itkisi baş verə bilər. Həddindən artıq immun aktivlik embriona qarşı aqressiv reaksiya yaradaraq uğurlu hamiləliyin qarşısını ala bilər. Digər tərəfdən, zəif immun cavab orqanizmin infeksiyalara qarşı müdafiəsini azaldaraq reproduktiv orqanlarda problemlərə yol aça bilər. İmmun disbalans həmçinin endometrioz və digər xroniki iltihabi xəstəliklərlə əlaqələndirilir. Sitokinlər və immun hüceyrələr hormonal proseslərlə qarşılıqlı təsirdə olaraq reproduktiv funksiyaları tənzimləyir. Bu qarşılıqlı təsir həm menstrual tsiklin, həm də hamiləliyin davamlılığı üçün vacibdir. Buna görə reproduktiv sağlamlıq immun sistemin düzgün və balanslı işləməsindən birbaşa asılıdır.

**- Sonsuzluq və cinsi aktivliklə bağlı ən çox rast gəlinən yanlış təsəvvürlər hansılardır və bunlar nə kimi nəticələrə gətirib çıxarır?**

- Bu mövzu ətrafında yayılan yanlış fikirlər çox vaxt gec diaqnoz və düzgün olmayan qərarlarla nəticələnir. Ən geniş yayılmış təsəvvürlərdən biri reproduktiv qabiliyyətin yalnız müəyyən yaşda birdən-birə azalmasıdır, halbuki bu proses tədricən gedir. Digər yanlış düşüncə menstrual tsiklin nizamlı olmasının tam reproduktiv sağlamlıq göstəricisi hesab edilməsidir. Əslində, ovulyasiya pozulmaları zahirən normal menstrual tsikllərdə də mövcud ola bilər. Cəmiyyətdə sonsuzluğun əsasən qadınla əlaqələndirilməsi də yanlışdır, çünki kişi faktoru da eyni dərəcədə rol oynayır. Bəzi insanlar düşünür ki, cinsi aktivliyin tezliyi avtomatik olaraq hamilə qalma ehtimalını artırır, lakin zamanlama və bioloji faktorlar daha həlledicidir. Həmçinin qorunma üsullarının uzunmüddətli istifadəsinin sonsuzluğa səbəb olduğu fikri elmi əsaslara söykənmir. Digər bir yanlış təsəvvür həyat tərzi dəyişikliklərinin bütün problemləri qısa müddətdə həll edə biləcəyidir. Halbuki bəzi hallar hormonal, genetik və ya anatomik səbəblərlə bağlı olur və tibbi müdaxilə tələb edir. Bu kimi yanlış təsəvvürlər məlumatlı yanaşmanı gecikdirərək müalicə imkanlarını məhdudlaşdıra bilər.

**- Gələcəkdə reproduktiv sağlamlığın necə inkişaf edəcəyini bu gün proqnozlaşdırmaq olurmu?**

- Gələcəkdə reproduktiv sağlamlıq daha çox fərdiləşdirilmiş və qabaqlayıcı yanaşma üzərində qurulacaq. Əsas məqsəd problemləri müalicə etməkdən çox, onların yaranma riskini əvvəlcədən müəyyən etmək olacaq. Hormonal izləmə sistemləri, genetik analizlər və metabolik göstəricilər bir araya gətiriləcək hər bir insan üçün fərdi reproduktiv profil formalaşdırılacaq. Rəqəmsal sağlamlıq texnologiyaları və geyilə bilən cihazlar real vaxtda məlumat toplayaraq davamlı monitorinq imkanı yaradacaq. Süni intellekt bu məlumatları analiz edərək riskləri erkən mərhələdə aşkar etməyə kömək edəcək. Bu isə sonsuzluq, hormonal pozuntular və digər problemlərin daha erkən müdaxilə ilə idarə olunmasını mümkün edəcək. Eyni zamanda, uzaqdan tibbi xidmətlər daha geniş yayılaraq əlçatanlığı artıracaq. Genetik skrininq vasitəsilə sağlam nəsil planlaşdırılması daha informasiyalı şəkildə aparılacaq. Nəticədə, bu sahə reaktiv müalicədən aktiv idarəetmə və profilaktikaya doğru transformasiya olunacaq.

# Dərmanların fərqli qiymətə satılması ilə bağlı Analitik Ekspertiza Mərkəzinin məlumatı

**Sosial şəbəkələrdə «Selsept 500 mq №50 tablet» dərman vasitəsinin müxtəlif aptek müəssisələrində fərqli qiymətlərlə satışa təqdim edilməsi ilə bağlı məlumat yayılıb. Paylaşımda vətəndaş həmin dərman vasitəsinin iki ayrı aptekdə müxtəlif qiymətlərlə (birində 123,02 manat, digərində isə 67,60 manat) satıldığını bildirərək bunun səbəbini soruşub.**

Qeyd edirik ki, Azərbaycanda dərman vasitələrinin satış qiymətləri Tarif (qiymət) Şurası tərəfindən tənzimlənir və təsdiq olunur. Bununla belə, mediada yayılan məlumat əsasında məsələ Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi (AEM) tərəfindən araşdırılıb və qanunvericiliyin tələblərinə uyğun müvafiq tədbirlər görülüb.

Araşdırma nəticəsində müəyyən edilib ki, «Selsept 500 mq №50 tablet» dərman vasitəsini 123,02 manata satan aptek müəs-



sisəsi tərəfindən hər hansı qanun pozuntusuna yol verilməyib. Həmin dərman vasitəsi üçün Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilmiş yuxarı satış qiyməti 123 manat 02 qəpik təşkil edir.

Müəyyən olunub ki, vətəndaşa «Selsept 500 mq №50 tablet» dərman vasitəsinin 67 manat 60 qəpiyə satışı «ZEYTUN PHARMACEUTICALS» MMC-yə məxsus Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küçəsi 92 ünvanında yerləşən aptek müəssisəsində həyata keçirilib.

Mediada yayılan məlumat və mövcud faktlar əsas götürülərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin dövlət reyestrindən çıxarış əsasında AEM-in əməkdaşları tərəfindən həmin aptek müəssisəsində plandankənar (növbədənkənar) yoxlama keçirilib.

Yoxlama zamanı müəyyən edilib ki, «Selsept 500 mq №50 tablet» dərman vasitəsi (böyrək, ürək və ya qaraciyər transplantasiyasından sonra orqan rəddinin qarşısını almaq üçün istifadə olunan immunosupressiv preparatdır) Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə edilən ən vacib dərman vasitələri siyahısına daxildir. Bu dərman həkim təyinatına uyğun olaraq dövlət tərəfindən həmin şəxslərə ödənişsiz təmin edilir.

Yoxlama çərçivəsində aptek müəssisəsinin məsul şəxsindən yazılı izahat alınıb. Təqdim olunmuş izahata əsasən, satışa çıxarılan preparat aptekə aid olmayıb, işçinin yaxın qohumuna məxsus olub və artıq istifadə edilmədiyi üçün aşağı qiymətə satılması məqsədilə aptekdə realizə edilib.

*(Davamı 12-ci səhifədə)*

# Naxçıvanda ağciyər xəstəlikləri üzrə konfrans keçirilib



Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və nazirliyin Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun (ETAXİ) təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin dəstəyi ilə Naxçıvan şəhərində «Ağciyər xəstəliklərinin diaqnostikası və müalicəsinə müasir yanaşma» mövzusunda elmi-praktik konfrans keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumata görə, tədbirdə Vərəmlə Mübarizə üzrə Milli Proqramın rəhbəri, Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun baş direktoru İradə Axundova, Professor Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm və Tənəffüs Orqanlarının Xəstəlikləri Sanatoriyasının direktoru Rəşid Bədəlov, QİÇS-lə Mübarizə Mərkəzinin direktoru Famil Məmmədov və ETAXİ-nun struktur bölmə rəhbərləri iştirak ediblər.

Konfransın əsas məqsədi tənəffüs sistemi xəstəliklərinin erkən diaqnostikası, müasir müalicə yanaşmaları, profilaktik tədbirlər və bu sahədə tətbiq olunan yeniliklərin tibb ictimaiyyətinin diqqətinə çatdırılması olub.

# Geni dəyişdirilmiş T-hüceyrələr metastatik xərçəngə qalib gəlir

**Almaniyanın Heydelberq şəhərində yerləşən Uşaq Onkoloji Mərkəzinin həkim və tədqiqatçıları böyrək xərçəngindən əziyyət çəkən, ağciyərlərində, qaraciyərində və beynində çoxsaylı metastazları olan 17 yaşlı pasiyentin tam remissiyasına nail olublar. Yeniyetməyə özünün genetik modifikasiya olunmuş, PRAME xərçəng zülalına nöqtəvi hücum edə bilən T-hüceyrələri yeridilib. Artıq 3 aydan sonra orqanizmdə həyat qabiliyyətli xərçəng hüceyrəsi qalmayıb. Müalicədən bir il sonra isə o, tam normal həyata və idmana qayıdıb.**



Bu barədə hightech.plus saytının yaydığı məlumatda bildirilir ki, pasiyentə böyrək xərçəngi diaqnozu 7 yaşı olanda qoyulub. Sonrakı 10 il ərzində müalicələrə baxmayaraq, xəstəlik dəfələrlə geri dönüb və digər orqanlara da yayılıb. Yeniyetmədə geni dəyişdirilmiş T-hüceyrələrlə terapiya aparılan məqamda qarın boşluğunda böyük şiş ocaqları, ağciyərlərdə, qaraciyərdə, çanaqda və beyində metastazlar olub. Tam sağalmaya gətirib çıxara bilən əlçatan müalicə üsulları artıq qalmayıb.

INFORM proqramı çərçivəsində şişin molekulyar analizi göstərib ki, xərçəng hüceyrələri PRAME adlanan şiş antigeni ifraz edir. Bu antigen immun sistemi üçün hədəf rolunu oynaya bilər. Bu zülal o zaman artıq böyüklərdə melanoma zamanı T-hüceyrə terapiyası üçün hədəf kimi tədqiq edilirdi. Həkimlər bu məlumatlara əsaslanaraq, analoji yanaşmanı yeniyetmədə də sınamaq qərarına gəldilər.

Terapiya üçün alimlər pasiyentin özünün T-hüceyrələrini götürdülər və onları elə genetik modifikasiya etdilər ki, onlar PRAME zülalını tanısınlar və onu ifraz edən hüceyrələrə hücum etsinlər. Bunun üçün zəruri olan genetik vektoru "Immatics" biotexnoloji şirkəti təqdim etdi. Hüceyrə preparatının istehsalı 7 gün çəkdi. Bundan sonra 2025-ci ilin iyul ayında o, pasiyentə venadaxili yeridildi.

Orqanizm müalicəyə çox tez cavab verdi. Artıq 9 gündən sonra biopsiya T-hüceyrələrin kütləvi şəkildə şiş toxumasına daxil olduğunu və xərçəng hüceyrələrini öldüyünü göstərdi. Növbəti həftələr və aylar ərzində zədələnmiş orqanlardakı bütün şiş ocaqları kiçilməkdə davam etdi. Üç aydan sonra təkrar biopsiyada şiş hüceyrələri tapılmadı, qan analizlərində də aktiv xəstəlik əlamətləri aşkar edilmədi.

Müalicədən təxminən bir il sonra yeniyetmənin vəziyyəti yaxşıdır. O, mütəmadi olaraq idman məşqləri edir, velosiped yarışlarında iştirak edir, peşə təhsilini bitirib.

Həkimlər vurğulayırlar ki, hələlik söhbət yalnız bir sağalma halından gedir. Bu metodun başqa pasiyentlərdə effektivliyi hələ sübut olunmayıb.

Bu istiqamətdə növbəti addım PRAMEtime III faza klinik tədqiqatlar olacaq. Onun 2027-ci ildə başlanması nəzərdə tutulub. Araşdırmada PRAME-pozitiv böyük şişləri olan 8-17 yaş arası 18 uşaq və yeniyetmə iştirak edəcək. 2500 pasiyentin analizlərini əhatə edən INFORM proqramının məlumatları göstərir ki, bu zülala uşaqlarda yüksək riskli yenitörəmələrdə tez-tez rast gəlinir. Bu isə o deməkdir ki, belə hallarda PRAME zülalı hüceyrə immunoterapiyası üçün perspektivli universal hədəf ola bilər.

## Başsağlığı

"Tibb qəzeti"nin kollektivi Əməkdar jurnalist, ixtisasca həkim olan

**NURANİ TOFİQXANIM QASIMOVANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

# RGEM həşəratların çoxalma ocaqlarını müəyyən etmək məqsədilə mütəmadi monitorinqlər aparır

**Ölkədə həşəratların çoxalma ocaqlarının müəyyən edilməsi məqsədilə mütəmadi monitorinqlər aparılır. Zərurət yaranan ərazilərdə dezinfeksiya və dezinseksiya tədbirləri həyata keçirilir. Durğun su mənbələrinin ləğv edilməsi, tullantıların vaxtında daşınması, ərazilərin sanitariya vəziyyətinin yaxşılaşdırılması həşəratların sayının azalmasına mühüm təsir göstərir.**




Bu barədə Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən (RGEM) məlumat verilib.

Bildirilib ki, yay mövsümündə müşahidə edilən yüksək temperatur və yağıntıların miqdarındakı dəyişikliklər həşəratların, xüsusilə də ağcaqanadların, milçəklərin və bəzi digər həşərat növlərinin aktivliyinə təsir göstərə bilər. Bununla əlaqədar olaraq, daxil olan bütün müraciətlər operativ şəkildə araşdırılır, aidiyyəti qurumlara yönləndirilir. Vətəndaşlara fərdi qoruma tədbirlərinin görülməsi tövsiyə edilir.

«Ayrı-ayrı bölgələrdə iqlim və ekoloji şəraitdən asılı olaraq bəzi həşərat növlərinin sayında mövsümi dəyişikliklər müşahidə oluna bilər. Ağcaqanad, gənə və digər həşəratlardan qorunmaq üçün repellentlərdən istifadə etmək, uzunqol və açıq rəngli geyimlər geyinmək, pəncərələrdə torlardan istifadə etmək, durğun suyun toplanmasına yol verməmək və təbiətdə olduqdan sonra bədəni gənələrin olub-olmamasına görə yoxlamaq tövsiyə edilir», - deyə məlumatda vurğulanıb.

Həmçinin diqqətə çatdırılıb ki, hazırda Azərbaycanda ağcaqanadlar vasitəsilə yayılan infeksiyalarla bağlı epidemioloji vəziyyət sabitdir.

# Dərmanların fərqli qiymətə satılması ilə bağlı Analitik Ekspertiza Mərkəzinin məlumatı

*(Əvvəli 11-ci səhifədə)*

Araşdırma zamanı müəyyən olunub ki, bu hal qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun deyil. Bundan əlavə, yoxlama zamanı aptek müəssisəsində normativ-hüquqi aktların tələblərinin pozulması ilə bağlı digər nöqsanlar da aşkarlanıb.

Aşkar olunmuş pozuntularla əlaqədar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 221.1-ci maddəsinə əsasən inzibati xəta haqqında protokol tərtib olunub və qanunvericilikdə nəzərdə tutulmuş müvafiq tədbirlər görülüb.

Analitik Ekspertiza Mərkəzi bir daha bildirir ki, vətəndaşların müraciətləri və mediada yayılan məlumatlar diqqətlə araşdırılır, qanun pozuntusu müəyyən edildiyi hallarda isə operativ nəzarət tədbirləri həyata keçirilir və qanunvericiliyə uyğun hüquqi qiymət verilir.

Eyni zamanda, media nümayəndələrindən xahiş olunur ki, səhiyyə sahəsinə aid məlumatları, xüsusilə AEM-in səlahiyyətlərinə aid məsələləri dərc etməzdən əvvəl rəsmi mövqeni də dəqiqləşdirsinlər. Bu, ictimaiyyətin düzgün məlumatlandırılmasına və yanlış təsəvvürlərin formalaşmasının qarşısının alınmasına xidmət edir.

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan:
Həsən bəy Zərdabi küç., 96.
3-cü mərtəbə, 6-cı otaq

Tel./faks: (012) 596-06-61

E-mail: tibbqazeti@mail.ru
www.tibbqazeti.az

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*